4 sentyabr 2020-ci il
№28 (8892)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

*Təhsil millətin gələcəyidir!*
*Heydər Əliyev*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

## Müəllimlik sənətini həmişə yüksək qiymətləndirmişəm



**Müəllimlik sənətini, müəllimin işini, zəhmətini həmişə yüksək qiymətləndirmişəm. Hesab edirəm ki, cəmiyyət haradan olursa-olsun, nədən olursa-olsun kasıb təhsilə xərcləməli, gənc nəslin təhsilinə, müəllimə kömək etməlidir. Bu, mənim prinsipial mövqeyimdir.**

Ümummilli lider Heydər Əliyevin 12 fevral 1995-ci ildə ölkənin təhsil işçilərinin bir qrupu ilə görüşündəki çıxışından

## Təhsildə yeni çağırışlar

Sentyabrın 1-i Azərbaycanın təhsil həyatında çox əhəmiyyətli hadisə ilə yadda qaldı. Ölkəmizdə pandemiya dövründə ilk dəfə "Təhsildə yeni çağırışlar" adlı beynəlxalq forum keçirildi ki, əhatəliliyini, iştirakçı sayı, mötəbərliliyi, gündəmə çıxardığı məsələlərin aktuallığı baxımından yüksək qiymətləndirilə bilər. Təhsil Nazirliyi yanında İctimai Şuranın dəstəyi, TAM - Teaching Advancement Matrix-in (Tədrisdə Ali Matriks) təşkilatçılığı, Azərbaycan Dövlət Pedaqoji Universitetinin tədris işləri üzrə prorektoru Eldar Aslanov və təhsilin idarə olunması üzrə mütəxəssis Salih Sarptenin (Kipr Cümhuriyyəti) moderatorluğu ilə təcrübə, aktuallıq və mübadilə başlıqları altında keçirilən forum yeni dövrün təhsil tələbləri və təhsildə keyfiyyətin yüksəldilməsi ehtiyaclarının müzakirəsinə həsr olunmuşdu.

Forumun Təşkilat Komitəsinin sədri, TAM-ın baş direktoru Cəfər Mənsimi belə tədbirin ərsəyə gəlməsində göstərdikləri dəstəyə görə Təhsil Nazirliyinin rəhbərliyinə, Nazirlik yanında İctimai Şuranın üzvlərinə, tədbirin təşkilində əməyi keçənlərə təşəkkürlərini çatdıraraq TAM-ın yaradılması zərurəti və missiyası barədə məlumat verib.

Təhsil Nazirliyi yanında İctimai Şuranın sədri, professor Şahlar Əsgərov forum iştirakçılarını, xüsusilə forumun əsas məruzəçisi - İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Təhsil və bacarıqlar üzrə direktoru Andreas Şlayxeri salamlayıb və forumun əhəmiyyətindən söz açıb: "Forum təhsildəki yeni çağırışları yerli və əcnəbi qabaqcıl təhsil mütəxəssisləri ilə müzakirə etmək imkanı yaratdığı üçün xüsusi əhəmiyyət kəsb edib. Bizim təhsil işçiləri olaraq əsas vəzifəmiz mənəviyyatı qorumaq və onu inkişaf etdirmək olmalıdır. Bəşəriyyətdə mənəviyyatın getdikcə zəifləməsinin əsas səbəbi təhsilin doktrinasındakı səhvlərdən qaynaqlanır.

⇨Ardı səh.10

## "STEAM Azərbaycan"

XXI əsr müasir texnologiyaların, yeni elmi yanaşmaların, ixtiraların sürətlə inkişaf etdiyi dövrdür. Bu ixtiraları yaradanlar isə müasir təhsil modellərinin yetişdirdiyi insanlardır. Bu baxımdan da günün məzunu müasir tələblərə cavab verən, əmək bazarında özünü doğruldan şəxslər olmalıdır. Bütün bunları prioritet hesab edən Təhsil Nazirliyi yeni təhsil modelləri üzərində araşdırmalar aparır, bu modellərin tətbiqini vacib hesab edir. Elə bu məqsədlə də Təhsil Nazirliyi 2019-2020-ci tədris ilindən başlayaraq Heydər Əliyev Fondunun dəstəyi ilə "STEAM Azərbaycan" layihəsinə start verdi.

Layihənin keçirilməsində əsas məqsəd respublikanın ümumtəhsil məktəblərində təhsil alan şagirdlərdə XXI əsr bacarıqlarını-kreativlik, əməkdaşlığın inkişaf etdirilməsi, müxtəlif proqramlaşdırma dillərini tətbiq etməklə müasir İKT avadanlıqlarından istifadə edə bilmə qabiliyyətlərini yüksəltməkdir. STEAM metodologiyalarının əsasında duran layihə əsaslı öyrənmə (PBL), təhsilalanların müasir cəmiyyətin problemlərini araşdıraraq müxtəlif həll yollarını müəyyənləşdirmək xüsusiyyətini artırır.

STEAM təhsili nədir? Bu təhsil modelinin üstünlükləri nədən ibarətdir?

STEAM - Elm, Texnologiya, Mühəndislik, İncəsənət və Riyaziyyatın birləşməsi nəticəsində yeni ideyaların reallaşdırılması, cəmiyyətdə müxtəlif problemlərin həllinə kömək edə biləcək təhsil yanaşmasıdır. STEAM təhsilalanlarda tənqidi yanaşma, yaradıcı düşünmə, qazanılan biliklərin müqayisəli şəkildə anlaşılması, yaradıcı formada yeni layihələr əsasında biliyin möhkəmlənməsi, əməkdaşlıqetmə və s. kimi XXI əsr bacarıqlarını formalaşdırır. STEAM fənləri ayrılıqda öyrətmək əvəzinə, onları real dünyadakı tətbiqlərə əsaslanan vahid öyrənmə modelində birləşdirir.

⇨Ardı səh.10

## Təhsilin qarşısında həmişə yeni məqsədlər yaranır

Təhsil naziri Emin Əmrullayev Real TV-nin "Mir Şahinin vaxtı" verilişində qonaq olub. Verilişdə Təhsil naziri ilə maraqlı və səmimi fikir mübadiləsi aparılıb.

*- Emin müəllim, sizi yeni dərs ili, həm də Təhsil naziri təyinatı münasibətilə təbrik edirəm. Tamaşaçılarımıza isə həm də yeni Təhsil nazirimizi tanıtmaq istərdik. Sizi tamaşaçılara necə təqdim edək?*

- Təşəkkür edirəm. Mən 1982-ci ildə Bakıda doğulmuşam. Təhsilimin əsas hissəsini - orta və ilk ali təhsilimi Azərbaycanda almışam. Ali təhsilimin bakalavr pilləsini Azərbaycan Dövlət İdarəçilik Akademiyasında oxumuşam. Daha sonra xaricdə təhsil almışam. "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində Amerika Birləşmiş Ştatlarının Kolumbiya Universitetində təhsil almışam. Təhsilimi bitirdikdən sonra Azərbaycana qayıdıb əsasən təhsil sahəsində - həm özəl, həm də dövlət sahəsində işləmişəm. 2013-cü ildən Təhsil Nazirliyində baş məsləhətçi vəzifəsinə qəbul olmuşam.

Bilirsiniz, Dövlət Proqramı məzunları dövlət qulluğuna imtahansız qəbul olurlar. Mən də bu fürsətdən istifadə edib dövlət qulluğunda karyerama başlamışam, daha sonra müxtəlif vəzifələrdə çalışaraq bu ilin iyul ayının 27-də möhtərəm Prezidentimiz İlham Əliyevin müvafiq sərəncamı ilə Təhsil naziri təyin olunmuşam.

*- Ölkənin, dövlətin çox əhəmiyyətli bir strukturuna rəhbərliyə başlamısınız. Hətta bəzi ölkələrdə Təhsil Nazirliyinə "güc strukturu" da deyirlər. Bizdə nə vaxt bu mənanı kəsb edəcək Təhsil Nazirliyi?*

- Təbii ki, bu, siz də qeyd etdiniz, həm böyük etimaddır, həm də böyük bir məsuliyyətdir. O mənada ki, mənə elə gəlir ki, təhsil sahəsində görülən işlərin nəticəsi 20-30 ildən sonra görünür.

⇨Ardı səh.4-5



**Beynəlxalq təşkilatlar təhsillə bağlı çağırış ediblər**

⇨səh.3

TKTA
Təhsildə Keyfiyyət Təminatı Agentliyi

**Xaricdə təhsil almaq istəyənlərin diqqətinə!**

⇨səh.7



**Beynəlxalq olimpiada hərəkatında növbəti İLK**

⇨səh.16

# UNEC-in yenidən inşa olunan 3 saylı tədris korpusu istifadəyə verilib

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər







Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Bakının Yasamal rayonundakı 3 saylı tədris korpusu yenidən inşa olunaraq istifadəyə verilib.

AZƏRTAC xəbər verir ki, sentyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Murtuza Muxtarov küçəsində yerləşən yeni tədris korpusunun açılışında iştirak ediblər.

Dövlətimizin başçısı və birinci xanım tədris korpusunda yaradılan şəraitlə tanış oldular.

Təhsil naziri Emin Əmrullayev və UNEC-in rektoru Ədalət Muradov Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya görülən işlər barədə məlumat verdilər.

Bildirildi ki, tikintisinə 2018-ci ildən başlanılan və müasir standartlara cavab verən yeni tədris korpusu köhnə binanın fasadı saxlanılmaqla inşa edilib. Müasir kampus standartlarına cavab verən, modern memarlıq elementləri ilə zəngin olan, 4 binadan ibarət yeni tədris korpusunda texniki və texnoloji ixtisaslar üzrə 3 min tələbə təhsil ala biləcək. Binada 30 auditoriya, 6 mühazirə, 6 linqafon otağı, ən müasir texnoloji avadanlıqla təchiz olunan 14 laboratoriya, geniş idman zalı, ikimərtəbəli kitabxana, böyük və kiçik konfrans zalları var. Burada təlim-tədrisi yüksək səviyyədə aparmaq üçün hərtərəfli şərait yaradılıb.



# Bakıda Uşaq İncəsənət Məktəbinin əsaslı təmirdən sonra açılışı olub

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 3-də Bakının Yasamal rayonundakı Vaqif Mustafazadə adına 2 nömrəli Uşaq İncəsənət Məktəbinin əsaslı təmirdən sonra açılışında iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı və birinci xanım əsaslı təmirdən sonra binada yaradılan şəraitlə tanış oldular.

Məlumat verildi ki, Vaqif Mustafazadə adına 2 nömrəli Uşaq İncəsənət Məktəbinin yerləşdiyi bina 1904-cü ildə inşa edilib. Ötən 116 ildə bina müxtəlif dövrlərin reallıqlarını yaşayıb: hospital, ümumtəhsil məktəbi, 1940-cı ildən isə musiqi məktəbi kimi fəaliyyət göstərib. Binanın memarlıq üslubu və fasadının ilkin görünüşü saxlanılmaqla Heydər Əliyev Fondu tərəfindən 2020-ci ildə əsaslı təmir olunub.

Hazırda məktəbdə fortepiano, skripka, gitara, klarnet, saksofon, vokal, xanəndə, tar, kamança, qarmon, nağara, rəssamlıq, xoreoqrafiya, nəzəriyyə və tədris köməkçi fənləri ixtisasları üzrə 385 şagird təhsil alır, onların təlim-tərbiyəsi ilə 78 müəllim məşğul olur. Məktəbin səs izolyasiyasına xüsusi diqqət yetirilən bütün tədris otaqları əyani vəsaitlərlə təmin olunub. İncəsənət məktəbinin ikimərtəbəli binasında 15 fərdi tədris otağı, nəzəriyyə otaqları, kitabxana, dərzi otağı, konfrans zalı, rəssamlıq otaqları, xoreoqrafiya zalı, yeməkxana və səsyazma studiyası fəaliyyət göstərir. Məktəbdə Vaqif Mustafazadə guşəsi yaradılıb. Vaqif Mustafazadənin şəxsi əşyalarının olduğu bu guşədən həm də tədris otağı kimi istifadə ediləcək.

Qeyd edək ki, dünya şöhrətli caz ustası Vaqif Mustafazadə 1949-1956-cı illərdə burada fortepiano ixtisası üzrə təhsil alıb. Azərbaycanın bir sıra görkəmli bəstəkarları və incəsənət xadimləri bu məktəbin yetirmələri olublar.

# Beynəlxalq təşkilatlar təhsillə bağlı çağırış ediblər

**Oruc MUSTAFAYEV**

Mart ayından dünyanı bürümüş koronavirus pandemiyası ayrı-ayrı ölkələrdə milli təhsil sistemlərinin normal fəaliyyətini iflic etməklə milyonlarla təhsilalan və təhsilverənlərin tədrisdən kənarda qalmasına yol açıb. 100-dən çox ölkədə məktəblərin bağlanması həyata keçirilib ki, bu da tədris prosesinin pozulmasına gətirib çıxarıb. Pandemiyanın ilk günlərindən virusun yoluxma arealının sürətlə genişlənməsinin təhsilalanlar üçün uzunmüddətli fəsadlarını nəzərə alan Birləşmiş Millətlər Təşkilatı (BMT), BMT-nin Uşaq Fondu (UNİCEF), BMT-nin Təhsil, Elm və Mədəniyyət məsələləri üzrə Təşkilatı (UNESCO), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD), Ümumdünya İqtisadi Forum, İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı (İSESKO) və təhsil sahəsində ixtisaslaşmış digər beynəlxalq təşkilatlar təhsil müəssisələrinin bağlanmasının mənfi nəticələrinin tədris prosesinə təsirlərinin minimuma endirilməsi və əhalinin ən zəif təbəqələrinə münasibətdə fasiləsiz təhsil üçün şəraitin yaradılması işində ölkələrə yaxından dəstək göstərmək məqsədilə bir sıra təlimat və tövsiyələr hazırlayaraq dünya ölkələrinə yaymışlar. Sənədlərdə pandemiya dövründə tədrisin məsafədən təşkili, təhsilalanların və təhsilverənlərin sağlamlığı, psixoloji durumunun tənzimlənməsi, psixoloji dəstəyin təşkili, məktəb-valideyn münasibətlərinə, valideynlərin uşaqların ağır dövrdə inkişafına dəstək göstərməsinin vacibliyinə və aktuallığına dair təkliflər əksini tapıb.

## Daha möhkəm məktəb-valideyn əlaqələri təlimdə yaranan boşluqları aradan qaldırmağa kömək edəcək

## COVID-19 böhranı zamanı uşaqların evdə öyrənməsi təhsilə olan yanaşmamızı dəyişir

**OECD:** "Böhran zamanı valideynlər uşaqları öyrənməyə davam etməsi üçün onları ilhamlandırmalı və motivasiya etməlidirlər".

"Koronavirus böhranı zamanı uşaqlara həmişəkindən daha çox kitab lazımdır!".

"Valideynlər bütün vaxtlarını uşaqlarının təhsilinə həsr edə bilməsələr də, övladları ilə birlikdə keçirdikləri saatlar onların təlimini, inkişafını və rifahını dəyişə bilər".

Koronavirus böhranı müəllim və valideynlər arasında güclü bir əlaqəni zərurətə çevirdi:

- Şagirdlərin təlimdə irəliləməsi üçün məktəblər valideynlərlə əməkdaşlıq etməlidirlər.
- Valideynlər gigiyena və sosial məsafə tədbirlərinin tətbiqində məktəblərlə əməkdaşlıq etməlidirlər.
- Valideynlər uşaqlarının təhlükəsizliyi naminə müəllimlərə və məktəblərə etibar etməlidirlər.
- Valideynlər məktəblərin bağlanmasından qaynaqlanan stressi və təlim itkisini azaltmaq üçün həllər tapmalıdırlar.

"Azyaşlı uşaqlar, valideynləri onların təlimində iştirak etdikdə daha yaxşı inkişaf edirlər".

"Valideynləri tərəfindən emosional dəstəklənən şagirdlər akademik sabitliyə daha çox meyillidirlər".

"Məktəblərin qapıları icma və valideynlərin daha fəal iştirakı ilə açılmalıdır".

"Daha möhkəm məktəb-valideyn əlaqələri təlimdə yaranan boşluqları aradan qaldırmağa kömək edəcək"

*COVID-19 böhranı zamanı uşaqların evdə öyrənməsi təhsilə olan yanaşmamızı dəyişir;

* Müəllimlərin pandemiya dövründə istifadə etdikləri innovasiyalar uzunmüddətli dəyişikliklərə səbəb ola bilər, bu zaman texnologiyalar gələcəkdə məktəblərdə daha vacib rol oynayacaq;

*Elektron təhsil sahəsində əldə olunan nailiyyətlər təhsil baxımından əlverişsiz təlim metodlarını geridə qoymamalıdır.

"Böhran dövründə şagirdlərin təhsil, sosial və emosional ehtiyaclarını nəzərə alan tədrisə vahid yanaşma xüsusilə vacibdir".

## Əsas prioritet məsələ insanların həyatını qorumaqdır

*UNESCO:* "Təhsilin yaxın gələcəyini planlaşdırmaq və ona hazırlaşmaq vaxtıdır".

"Əsas prioritet məsələ insanların həyatını və rifahını qorumaqdır. Valideynlər, pedaqoqlar, məktəb icmaları məktəb sisteminin - şagirdlərin, müəllimlərin və digər təhsil işçilərinin fiziki, psixi sağlamlığını qoruya biləcəklərinə əmin olmalıdırlar".

"Məktəblər yenidən açıldığında müəllimlər bərpa mərhələsində əsas rol oynayacaqlar. Onlar təhsil siyasətinin formalaşması və planlaşdırılmasının bütün mərhələlərinə daxil edilməlidir".

## Pandemiya ilə əlaqədar uşaqlarla dürüst, nikbin olmaq vacibdir

*Ümumdünya İqtisadi Forumu:* "Uşaqlara COVID-19-un nəticələrini anlamağa, öz fikirlərini və hisslərini ifadə etməkdə köməklik göstərmək ən yaxşı yanaşmadır".

* Pandemiya ilə əlaqədar uşaqlarla dürüst, eyni zamanda nikbin olmaq vacibdir.

* Baş verənləri uşaqlara ən yaxşı şəkildə çatdırmaq üçün onların yaşına uyğun dildən istifadə edin.

* Verdiyiniz dürüst məlumatlar uşaqlara əl yuma və yaxşı gigiyena tədbirlərinin vacibliyini başa düşməyə kömək edə bilər.

* Qaydalara əməl edilməsi uşaqlara baş verə biləcək problemlərdən əvvəlcədən xəbərdar olmağa, stress və narahatlıqları azaltmağa kömək edə bilər.

"Koronavirus (COVID-19) bütün dünyada təhsilin yolunu dəyişib. Bu dəyişikliklər bizə təhsilin uzunmüddətli perspektivdə yaxşılığa və ya pisliyə doğru necə dəyişə biləcəyinə dair fikirlər verir".

* Koronavirus böhranı müəllimlərə sektorun yenidən gözdən keçirilməsi üçün fürsət verə bilər.

* Texnologiya gələcək nəsillərin yetişdirilməsində əsas rol oynamaqda davam edəcək.

* Biliyin bir əl məsafəsində olduğu bir dünyada müəllimin rolu dəyişməlidir.

Təhsilin əlçatanlığı, bərabərlik və keyfiyyəti yaxşılaşdırılmalıdır.







**Antonio Quterreş,**
*BMT-nin baş katibi*



"Təhsilin gələcəyi indi yaradılır. İndiki nəslin pedaqoji metod və prinsipləri yenidən düşünmək imkanı var. Qlobal davamlı inkişaf hədəflərinə çatmaq naminə bir tramplin olaraq hamı üçün keyfiyyətli təhsil verən sistemlərə doğru addım ata bilərik".

**Salim Al-Malik,**
*ISESCO-nun baş direktoru*



"Bəşəriyyətin gələcəyi təhsilin və mədəniyyətin vacib rolunun qorunub saxlanmasından asılıdır".

**Odri Azule,**
*YUNESKO-nun baş direktoru*



"Biz texnologiyaların pandemiya ilə mübarizədə bizə kömək edəcəyini bilirik, bütün dünyada yeni və innovativ ideyaları olan gənc oğlan və qızlar var, lakin onlara bu işin sonuna çatmaq üçün dəstək lazımdır".

# Təhsilin qarşısında həmişə yeni məqsədlər yaranır

## Təhsil naziri Emin Əmrullayev yeni tədris ili ərəfəsində “Real” televiziyasına müsahibə verib

⇦ Əvvəli səh.1





Ona görə də bizim hazırda gördüklərimiz - istər cəmiyyətdə, istər ətrafda, insanların davranışı, iqtisadiyyatımız, əmək bazarımız əsasən 20-30 il bundan əvvəlki təhsilimizin güzgüsüdür. Güc strukturu dedikdə, baxır, siz gücə necə tərif verirsiniz? Yəni, güc strukturu nədir? Birmənalı olaraq düşünürəm ki, təhsil hər bir mənada ölkənin gələcəyini müəyyən edən əsas amildir. Bu gün bizim təhsil sahəsində gördüyümüz işlərin nəticəsini 30 ildən sonra görür, hiss edir və başa düşürük. Yəni, bu məsələ uzun müddətdə təhsil sisteminin, Təhsil Nazirliyinin gündəlik şəkildə məşğul olduğu bir məsələdir. Düşünürəm ki, bunu həmişə nəzərə almaq lazımdır. Yəni, təhsil bir gündə, 5 gündə, hətta 5 ildə belə, çox ləng dəyişən, amma dəyişiklikləri dayanıqlı olan bir sahədir. Yəni, burada baş verən dəyişikliklər uzunmüddətdə çox geniş davam edir, bir neçə nəsillər bu dəyişiklikləri özündə daşıyır.

### “Biz şagirdlərimizi keçmişi düşünərək hazırlamamalıyıq”

*- Maraqlı bir yerə gəlib çatdıq sizinlə. Bu gün inkişaf saatla gedir. Elə mobil telefonların formasına, imkanlarına fikir versək, kifayət qədər maraqlı vəziyyət yaranır. Təhsil naziri olaraq siz gələcək fəaliyyətinizi proqram və proqnoz şəklində uzlaşdırsanız, bu gün 6 yaşında məktəbin qapısını açıb içəri girən uşaq müəyyən bir müddət keçəndən sonra, məsələn, 11 il keçəndən sonra, bəlkə də gələcəkdə 12- 13 ildən sonra necə olacaq? Bu müddətdən, məktəbi qutarandan sonra düşdüyü mühit, sizin proqnoza görə eynimi olacaq? Yəni, bu gün uşaq 10 il sonrakı cəmiyyətə nə dərəcədə düzgün istiqamətləndirilərək hazırlanacaq? Həmin o inkişaf mühitinə düşə biləcəkmi?*

- Bu, bir nömrəli sualdır əslində. Siz də bildiyiniz kimi, dəyişikliyin və inkişafın sürəti fəqlidir. Çünki biz özümüzün zaman oxu ərzində sürətimizi çox düzgün müəyyən etməliyik. Burada bir neçə məsələ var. Biz şagirdlərimizi keçmişi düşünərək hazırlamamalıyıq. Bir çox hallarda biz məzmun barədə, məktəb haqqında danışanda valideynlər, mən məktəbə gedəndə belə deyildi, deyirlər, yəni, keçmişə baxıb bu günü müqayisə edirlər. Amma bu uşaqlar 30 yaşları olanda əmək bazarı necə olacaq, bu, çox vacib məsələdir.

*- Tamamilə doğrudur...*

- Gələcək necə olacaq, bu qeyri-müəyyəndir. Mənə elə gəlir ki, 30 il bundan əvvəl siz yəqin mobil telefonların bugünkü imkanlarından danışmayacaqsınız. Çox az adam ağlına gətirməzdi ki, seçdikləri ən yuxarıdakı deyil. Bundan sonrakı 20 il necə olacaq, çox çətindir təsəvvür etmək. Amma bununla belə, bəzi şeylər aydındır, daha çevik, daha yaradıcı, dəyişikliyə tez uyğunlaşa bilən vətəndaşlar, o cümlədən də təbii ki, milli-mənəvi dəyərlərini itirməyən, öz vətənini, öz ölkəsini sevən vətəndaşlar Azərbaycan üçün birmənalı olaraq ən vacib aktivlər, dəyər olacaq. Yəni, inkişaf bu istiqamətdə getməlidir. Biz başa düşməliyik ki, bu gün 6 yaşı olan Azərbaycan vətəndaşı 10 ildən sonra artıq özünün qonşusu, kənd və qəsəbəsində yaşayan insanlarla rəqabətdə olacaq. Bu rəqabət qlobal olmayacaq. Çünki sərhədlərin mənası itir. Bu gün Azərbaycanda ən son texnologiyanı, elektronikanı, rəqəmsal qaydada istehsal edib dünyaya satmaq üçün hər hansı sərhədi keçməyə ehtiyac yoxdur, bunun üçün qərarvermə, yaradıcı düşüncə, digər mədəniyyətlərdən olan insanlarla ünsiyyət, əməkdaşlıq edib dil tapmaq, belə deyək, ticarət etmək bacarığı ən vacib bacarıqlar olacaq. Yəni, təhsildə fundamental bacarıqlar mənə görə həmişə var və həmişə qalacaq. İstər riyazi biliklərdir, istər yazmaq-oxumaqdır, bunlar fundamental bacarıqlardır. Söhbət bundan əlavədən gedir. Bəzi hallarda bizdə belə bir söz işlədilir ki, biz artıq yaddaş məktəbindən, belə deyək, uzaqlaşırıq, bacarıqlar istiqamətində gedirik. Amma yenə də yaddaş öz-özlüyündə təhsilin çox vacib bir hissəsidir. Və təhsilalan çox şeyləri yadında saxlamalıdır. Əgər 60-cı illərdə öyrəndiklərini yadında saxlayaraq gəlib imtahanda danışırdınsa, XXI əsrdə bu, kifayət etmir. Yadda qalan informasiyaya yaradıcı yanaşıb, yeni bir şey yaratmaqdan gedir söhbət. Yəni, hazırda biz təhsilalanlarımıza bunu təşviq etməliyik. Çox sadə dildə desək, bu gün bizim təhsilimiz məcburdur ki, biz təhsil sistemi olaraq artıq qloballaşma dövründə həmin o standartlara uyğun şəkildə irəliyə getməliyik. Bu, çox vacibdir. Yenə, eyni zamanda, unutmamalıyıq ki, biz hardan gəlirik, biz kimik, yəni, kimliyimiz çox vacib məsələdir. Milli dəyərlərimiz üçün çox vacib məsələdir. Həmin dəyərlərimizdən irəli gələrək hər bir azərbaycanlının, hər bir Azərbaycan vətəndaşının Azərbaycanın ehtiyaclarını başa düşməsi, Azərbaycanın qlobal dünyada yerini başa düşməsi və həmin ehtiyacları müdafiə etməsi üçün əlindən gələni etməsi və müvafiq bacarıqlara malik olmasıdır. Bu bacarıqlar yalnız emosional bacarıqlar olmamalıdır. Bu, çox vacib məsələdir, yəni, sevmək emosional bir duyğudur, çox vacibdir, zəruridir. Amma kafi deyil. Kafi olması üçün həm də bacarıqlar lazımdır ki, əmək bazarında, qlobal dünyada məhz bu rəqabətliliyə davam gətirə bilək. Düşünürəm ki, bu, vacib məsələdir.

### “Oxumağa həvəs yaratmaq müəllimin əsas fəaliyyətidir”

*- Biz bir vaxtlar müəllimə öyrədən kimi baxırdıq. Bu gün müəllimlərin çox ciddi rəqibləri yaranır: sosial şəbəkələr, internet və s. Müəllim bizim anlayışımızda klassik intellektual vahid, hətta ştat vahidi kimi deyil artıq. Müəllimin yerinə internet girir, çox ciddi şəkildə girir. Artıq biz bunun real şahidləri və iştirakçılarıyıq. Bu baxımdan Azərbaycan müəlliminin öhdəliyinin dəyişməsini necə şərh edərdiniz?*

- Bu da mühüm dəyişiklikdir. Biz müəllimi ümumi zaman oxuna qoysaq, Azərbaycan məktəbi tarixinə baxsaq, XIX əsrin sonu, XX əsrin əvvəllərində, ümumiyyətlə, müəllim 100 il bundan əvvəl də verilmiş kənddə, qəsəbədə əsas informasiya daşıyıcısı idi. Ona görə də müəllim müqəddəs idi, çünki hamı ondan öyrənirdi. Hətta çoxları “müəllimlər görəsən yemək yeyirmi, yatırmı” kimi suallar verirdi. İndi uşaqlar bu sualı vermir. Və bəzən biz təəccüblənirik ki, niyə belədir. Artıq müəllim müqəddəsliyini itirdimi? Burada məsələni 2 yerə bölməliyik məncə. Müəllimin öyrədən olaraq, tərbiyəçi olaraq, nümunə olaraq müqəddəsliyi daim qalmalıdır. Amma müəllim başa düşməlidir ki, siz dediyiniz kimi, artıq yeni rəqibləri var və bəzi hallarda bu rəqiblərlə rəqabət aparmaq bir o qədər mənasızdır. Burada həmin rəqiblərlə əməkdaşlıq önəmlidir. Həmin rəqiblərlə mübarizə aparırsa, dediyimiz İKT ilə, internetlə rəqabət aparırsa, onu inkar edirsə, müqavimət göstərirsə, uzunmüddətli vədədə bu müəllimin nə təhsilalana, nə valideynə, nə də cəmiyyətə heç bir faydası yoxdur. Çünki bu mübarizənin qalibi aydındır. Amma bir müəllim internetlə, İKT ilə əməkdaşlıq edirsə, onu öz məqsədləri üçün öyrənirsə, öyrətmək üçün öyrənirsə, öyrənmək üçün istifadə edirsə, bu halda inanıram ki, həm öyrənənlər, həm də cəmiyyət üçün faydalı bir müəllim olacaq. Amma bir məsələni də istərdim qeyd edim. Müəllim sözü dilimizə keçmə sözdür və mənası öyrədəndir. Amma psixoloji nöqteyi-nəzərdən biz öyrədən və öyrənən arasında çox vacib bir fərqi ayırd etməliyik. Təhsil öyrənmək haqqındadır, öyrətmək deyil. Siz öyrənmirsinizsə, mən sizi nə qədər çox öyrətsəm də siz öyrənə bilməzsiniz. Yəni, öyrənmək həvəs və psixoloji motivasiya ilə bağlıdır. Məncə, biz bunu başa düşməliyik. Bir çox hallarda bu, neqativdir. Ancaq mən bunu deməliyəm o mənada ki, sinifdə şagird oxumayanda müəllim onun üstünə qışqırır və bərk qışqıranda elə başa düşülür ki, o, daha yaxşı öyrənəcək. Amma belə deyil. Şagirdin, təhsilalanın öyrənməsi üçün, ümumiyyətlə, təhsil texniki proses deyil, yəni, bildiyimizi bir mənbədən digərinə ötürmürük. Bu, psixoloji prosesdir. Bu, beynin inkişafıdır. Bu, hafisənin inkişafıdır. Bu, bacarığın və yaradıcılığın inkişafıdır. Bu, yalnız həvəslə bağlıdır. Yəni, oxumağa həvəs olmalıdır. Oxumağa həvəs yaratmaq müəllimin əsas fəaliyyətidir. Müəllim dedikdə, biz daha geniş yanaşmalıyıq. Valideyn də müəllimdir. Müəllim də təhsil verəndir. O cümlədən ətraf mühit də müəllimdir.

*- İndiki şəraiti nəzərə alsaq, hətta bu gün valideyn də müəllimlə həmkarlıq edir...*

- Tamamilə doğrudur. Yəni, insan doğulandan bu həyatdan gedənə qədər öyrənir. Onun öyrənməsinə nə təsir edir - bu, əsas sualdır. Müəllim də təsir edir, mühit də təsir edir, internet də təsir edir. Ətrafdakı insanların davranışları da təsir edir. Ətrafda gördüyü yaşlı əminin-dayının davranışı da təsir edir və s. Bu mühit bizim uşağımızı öyrədir.

- Daha çevik, daha yaradıcı, dəyişikliyə tez uyğunlaşa bilən vətəndaşlar, o cümlədən də təbii ki, milli-mənəvi dəyərlərini itirməyən, öz vətənini, öz ölkəsini sevən vətəndaşlar Azərbaycan üçün birmənalı olaraq ən vacib aktivlər, dəyər olacaq. Yəni, inkişaf bu istiqamətdə getməlidir.
- Biz müəllimi ümumi zaman oxuna qoysaq, Azərbaycan məktəbi tarixinə baxsaq, XIX əsrin sonu XX əsrin əvvəllərində, ümumiyyətlə, müəllim 100 il bundan əvvəl də verilmiş kənddə, qəsəbədə əsas informasiya daşıyıcısı idi.
- Müəllimin öyrədən olaraq, tərbiyəçi olaraq, nümunə olaraq müqəddəsliyi daim qalmalıdır.
- Müəllimin gücü onun təhsil sisteminin gücündən artıq ola bilməz. Bu, vacibdir. Sual müəllimlərin tək bilik və bacarığında deyil, məsələyə münasibətindən, dəyərlərindən, davranışından asılıdır.
- Təhsilin birinci və önəmli hissəsi dəyərdir. Biz bilikdən daha çox insanlara dəyər verə bilərik.
- Cənab Prezidentlə videokonfransda bir neçə tapşırıqlar verildi. Ümumi fəlsəfi, konkret, uzunmüddətli hədəflər qeyd edildi. İlk növbədə, təhsilin məzmunu, yəni, biz uşaqlarımıza nə öyrədirik və niyə öyrədirik sualı önəmli məsələdir.

### “Təhsilin birinci və önəmli hissəsi dəyərdir”

*- Google var, kalkulyator var. Bu baxımdan, tutaq ki, şagirddən Şirvaninin doğum tarixini soruşmaq nə dərəcədə maraqlıdır və ya kalkulyator varsa vurma-çıxmanı uşağın öyrənməsi nə dərəcədə vacibdir? Bu mənada, mən deyirəm ki, müəllim artıq yavaş - yavaş mahiyyət etibarı ilə köhnəlmir ki? Onun yeni formatı necə olmalıdır?*

- Müəllim heç vaxt aradan çıxa bilməz. Müəllim prosesin vacib bir hissəsidir. Müəllimin gücü onun təhsil sisteminin gücündən artıq ola bilməz. Bu, vacibdir. Sual müəllimlərin tək bilik və bacarığında deyil, məsələyə münasibətindən, dəyərlərindən, davranışından asılıdır. Məncə, ən vacib məsələ budur. Bayaq dediyim məsələdir. Yəni vacib olan sinif otağına girən müəllimin gələcəklə bağlı, keçmişlə bağlı olan məsələyə münasibətidir. Müəllim hesab edirsə ki, sinif otağındakı uşağı özü məktəbdə olandakı kimi tərbiyə etməlidir, bəlkə də ola bilər. Çünki tərbiyə və dəyər çox dəyişməyib. İnsanlar 18-ci, 19-cu, 20-ci və 21-ci əsrdə də dürüst və səmimi olmalıdırlar. Vətənlərini sevməlidirlər, yəni dəyərlər, mən, ümumiyyətlə, düşünürəm, təhsilin birinci və önəmli hissəsi dəyərdir. Biz bilikdən daha çox insanlara dəyər verə bilərik. Şirvani misalı nümunəsini çəkdiniz. Şirvaninin nə vaxt doğulduğunu bilməkdənsə şairi sevməyi öyrətmək lazımdır. Yəni, bu fərqi istərdim görək. Biz bunu məktəbdəki müəllimin tərəfindən görək. Və sevgi özü bir dəyərdir. Məsələn, bu dəyər, vətənə sevgi - bu dəyərlər həmişə eyni olub. Amma 21-ci əsrdə vətəni sevməklə yanaşı, bacarıqlar olaraq 19-cu əsrin bacarıqları ilə vətəni sevmək bildiyim qədər zəruridir. Amma kafi deyil, yəni, kifayət deyil. 21-ci əsrin başqa-başqa bacarıqları var. İnsan ancaq vətəni sevirsə, ancaq digər bacarıqları yoxdursa, bu, müəyyən mənada uzunmüddətli məyusluğa gətirib çıxara bilir. Vətənin ehtiyaclarını başa düşürsən, amma ona kömək edə bilmirsən, çünki ona kömək etmək üçün başqa bacarıqlar lazımdır. Bu mənada biz bacarıq, dəyər, yəni bu səriştələrdən ki, danışırıq - bir az pedaqoji dildə danışırıq - bunun kökündə olan dəyərlərdir. Dəyər və bacarıqların ümumi bir vəhdətindən danışırıq. Müəllimlərimiz sinif otağında bundan danışanda başa düşməlidirlər ki, hamı əlaçı olmayacaq, hamı hər şeyi bacarmayacaq, amma hamının yaxşı dəyərləri ola bilər.

### “Təhsil və iqtisadiyyat ən uyğun bağlantıdır”

*- Təhsil nazirimizin yeni olmasından istifadə edib və dediklərinizə əsasən belə bir sual vermək istəyirəm, hansı yeniliklər gözləyir təhsilimizi?*

- Yəni, əslində təhsildə son dövrlərdə bir davamlılıq var. Düşünürəm ki, mənim təyinatım və Təhsil naziri kimi vəzifəmdə olmağıma çox kömək edən bir məsələdir. Özümdən əvvəl olan işlərin davamlılığı və ardıcıllığını təmin etmək çox vacibdir. Çox məsələlər var. Belə danışsaq, cənab Prezidentlə videokonfransda bir neçə tapşırıqlar verildi. Ümumi fəlsəfi, konkret, uzunmüddətli hədəflər qeyd edildi. İlk növbədə, təhsilin məzmunu, yəni biz uşaqlarımıza nə öyrədirik və niyə öyrədirik sualı önəmli məsələdir. Bəzən biz uşaqlara onların istədiyini yox, onlara nə lazım olduğunu yox, öz arzularımızı öyrədirik. Bu, çox vacibdir. O mənada ki, hər bir fənn mütəxəssisi hesab edir ki, bu, normaldır. Mən insanların səmimiliyinə və ölkənin gələcəyinə inamını sual altına almıram, sadəcə bu, normal və təbii prosesdir. Hər bir fənn mütəxəssisi fizika, kimya, biologiya, tarix - 17 fənnin şagird üçün zəruri olduğuna inanır və səmimi olaraq inanır. Sual ondan ibarətdir ki, verdiyiniz bilik 10-20 ildən sonra uşağa lazımdırmı? Əmək bazarında lazım olacaqmı, bu, bir məsələdir, yəni məzmun istiqaməti. İkinci istiqamət müəllimlərlə bağlıdır. İlk növbədə, müəllimlərin bacarıqları və hazırlığı öz yerindədir. Amma dəyərlərə söykənən təhsilin önə çıxması vacibdir. Biz daha çox dəyərlər haqqında danışmalıyıq. Ümumiyyətlə, insan bacarıqları ilə onun dəyərləri arasında çox böyük asılılıq var. Yəni, insan məsuliyyətsizlik edirsə, o savadsız ola bilməz. Vaxtında ev tapşırıqlarını edirsə, məktəbdə yəqin ki, onda hansısa bir savad, bilik formalaşır. Başqa bir dəyişiklik, biz təhsilə sırf pedaqoji-tərbiyə formatında baxırıq. 7 ildir ki, mən Təhsil Nazirliyində işləyirəm və bir çox təhsil işçiləri ilə ünsiyyətdəyəm. Biz hələ təhsilə iqtisadiyyat kimi baxmırıq. Yəni, təhsil və iqtisadiyyat məncə ən uyğun bağlantıdır. Bu gün təhsildə atdığınız addımlar 20 ildən sonra bizim iqtisadiyyatımızdır. Biz bacarıq iqtisadiyyatından, innovasiyalardan danışırıq. Bu, öz kökünü təhsildən götürür. Burada başqa bir məsələ, biz nəyi başa düşməliyik - təhsilə nə vaxt başlayırıq sualı çox önəmlidir. Məsələn, bizim bir çox insanlarımız, valideynlərimiz, bu repetitorluqdan da görünür, inanırlar və tam səmimi inanırlar ki, uşaq eybi yoxdur, çox özünü yormasın, 8-9-cu sinfə çatanda ona repetitor tutarıq və o hazırlaşar gəlib çatar yoldaşlarına. Buna texniki baxış var. Bu, bir bilikdir, məsələ, bir yükü hansısa A nöqtəsindən B nöqtəsinə köçürməkdən gedir.

*- Niyə gedirlər bu yola...*

- Niyə, ona görə ki, yanaşma düz deyil. Təhsil nə vaxt başlayır, bu önəmli məsələdir, ümumiyyətlə, bu, artıq insanın, elmi nöqteyi-nəzərdən də sübut olunub ki, erkən yaşı onun digər həyatını müəyyən edən amildir. Bir misal deyim, bəzən biz haqlı olaraq inanırıq ki, azərbaycanlılar çox istedadlı, fərqli istedadlı xalqdır. Bizim özümüzün istedadlı xalq olduğumuza inanıram. Mən də düşünürəm, istedadlı xalqıq, amma bunun bir qədər, gəlin, davranış tərəfinə baxaq. Həqiqətən də bir çox azərbaycanlılar təhsilləri o qədər də yüksək olmasa da kifayət qədər yaradıcı, bacarıqlı və uğurludurlar. Bu, niyə baş verir, düşünürəm ki, bu, ailə strukturumuzla bağlıdır.

⇨Ardı səh.5

# Təhsilin qarşısında həmişə yeni məqsədlər yaranır

## Təhsil naziri Emin Əmrullayev yeni tədris ili ərəfəsində "Real" televiziyasına müsahibə verib

⇦ Əvvəli səh.4

Bizim ailə strukturunda uşaq kiçik olanda bir yaşından 3 yaşına qədər onunla hamı oynayır, danışdırır, sağa-sola dartır, ailələr, adətən, çoxuşaqlıdır, ailələrdə uşağın öyrənmə mühiti var. Məsələn, Qərb mədəniyyətində bir uşaqlar azdır. İkincisi, nəvə-baba uşağın yanındadır və bu, bizim təbii özəlliyimizdir ki, biz bundan düzgün şəkildə yararlanmalıyıq. Məsələn, bizdə, ola bilər, məktəbəqədər təhsillə əhatəlilik aşağıdır, amma bizim məktəbəqədər təhsil o qədər də strukturlaşmış şəkildə olmasa da bizim ailəmizdə var. Bunun mahiyyəti nədən ibarətdir: yeniliklərdən danışırıqsa, məncə, biz erkən yaş təhsilinə nə vaxtdan başlamalıyıq sualı var. Nə qədər çox tez başlayırıqsa, bir o qədər düz edirik. Nə qədər gecikiriksə, bir o qədər ləngiyirik. Bildiyimiz hədəflərə çata bilmirik. Bəzən adamlar bu əlaqəni qurmaq istəmir. Və yaxud da bunu üzunmüddətli olduğuna görə danırlar. Həqiqət bundan ibarətdir ki, məktəbəqədər təhsilə yatırılan investisiya iqtisadi yöndən ən böyük geri qayıdış verən investisiyadır, təxminən 28 faiz və daha çox, yəni, hər bir manat 28 manat kimi qayıdır. Amma 20-25 ildən sonra, yəni, 25 il gözləmək lazımdır. Biz universitetlərimizin, ali təhsilimizin fəlsəfəsinə, mahiyyətinə qayıtmalıyıq. Gözləntilərimizə qayıtmalıyıq, o mənada gözləntilərə ki, universitet haradır? Diplom almaq üçün yerdir, yoxsa bilik qazanmaq üçün yerdir? Yəni, bizim uşaq universitetə niyə gedir, yəni, onun kağızı olacaq, yoxsa əmək bazarının tələblərinə uyğun bacarığı olacaq?

### "Təhsil elə də rahat bir proses deyil"

*- Təhsil islahatları bizə nə verdi, məsələn, kurikulumlardan sonra təhsil leksikonumuza daxil olmuş digər terminlər var, onlardan çox danışılır. Sizcə, vəziyyət aydınlaşdı, yoxsa qəlizləşdi?*

- Bu suala belə cavab verim. Biri var islahat, biri var islahatın kommunikasiya və qavranması. Bunları fərqləndirək. İslahatın mahiyyəti nədədir? 2008-ci ildən baş verən islahatların mahiyyəti ondan ibarət idi ki, biz ayrı-ayrı mövzulara toxunurduq, biz bacarıqlara toxunmurduq. Deyək ki, uşaq hansısa nitq hissələrini öyrənir. Birinci dərsimiz olurdu isim, sifət və s. Bununla biz öyrənə-öyrənə gedirdik. Mahiyyət bu mənada dəyişir ki, biz deyirik ki, bunlar var, buna dəyməməliyik. Bunları uşaqlar öyrənməlidir. Bunun inkarından söhbət getmir. Bizim öyrənəcəyimiz şey dəyişir. Uşaq oxuduğunu anlamalıdır. Biz hələ də oxu bacarığı deyəndə, bir dəqiqədə uşaq neçə söz oxuyur, bu, bir ölçmədir. Uşaq sözləri oxuyur və siz onları sayırsınız. Bir uşaq 67, digəri 72 söz oxudu. Bir də var ki, həmin oxuduğu 72 sözə bağlı ona sual verirsiniz ki, sən oxudun, nə başa düşdün, öz sözlərinlə onu mənə yaza bilərsənmi? Bu, artıq bacarıqdır. Bir neçə bacarıq var, uşaq oxuya bilməlidir, oxuduğunu anlamalıdır, onu yazılı şəkildə ifadə etməyi bacarmalıdır. Və əmək bazarında bunlar lazımdır. Biz sizinlə hazırda bu bacarıqların mübadiləsi ilə məşğul oluruq. Siz mənə sual verirsiniz, mən cavab verirəm. Amma biz bunları kommunikasiya edə bilərik. İnsanlar hələ də sual verirlər ki, kurikulum ləğv olunacaqmı? Bu sual onu göstərir ki, biz kurikulum sözünün mahiyyətini hələ təhsil sistemi olaraq tam başa düşə bilməmişik. Kurikulun ərəb sözüdür, məzmun verirəm deməkdir. Bunlar, təhsilin məzmunu necə ləğv oluna bilər? Bu proqram necə ləğv oluna bilər? Yəni, bu sual verilirsə ki, gəlin kurikulumu ləğv edək, deməli, bizim kommunikasiya problemimiz var. Problem kurikulumda deyil. Problem ondadır ki, bunu adamlar başa düşmür. Gəlin, insanlara onu izah etməyə çalışaq ki, islahatın mahiyyəti yenə də bundan ibarətdir ki, əslində bir neçə fundamental bacarıq var ki, o insanın həyatını dəyişir. Yəni, insan oxuduğunu başa düşürsə, bu, artıq, böyük işdir. O nə qədər sürətlə oxuyursa, oxuduğuna mövqe bildirə bilirsə, bu, bir az yuxarı bacarıqdır. Oxu onda mövqe formalaşdırır. Bu mənada bizim cəmiyyətimiz məncə, bir qədər rahatlığa doğru gedir, lakin təhsil elə də rahat bir proses deyil. Bilikli, savadlı olmaq öz-özünə baş vermir. Bunun masa arxasında oturub kitab oxumaqla, saatlarla kitab oxumaqla çox böyük əlaqəsi var. Yəni, bir saat bütün uşaqlar oxuya bilir, 2 saat yəqin ki, çox uşaq oxuya bilir, 3 saat çox uşaq oxuyacaq, ancaq gündə 6-7-8 saat 10 ildən artıq oxumağa və öyrənməyə vaxt sərf eləmək çox vacibdir ki, biz bacarıqlı vətəndaş və insan yetişdirə bilək.

*- Təhsilin idarə edilməsi sizi qane edirmi, yəni, o nə vaxt vahid olacaq?*

- Bu, bir qədər çətin sualdır, nə mənada? Nə vaxt vahid olmağını deyə bilmərəm. Amma vahid olmalıdırmı, bu, ayrı bir sualdır. Bu, sadəcə olaraq bir kontekstlə bağlıdır. Müəllim sinfin qapısını bağlayandan sonra uşaqlarla birlikdə qalır. Təhsil Nazirliyi əməkdaşları, yerli təhsil idarəetmə orqanlarının əməkdaşları, müfəttişlər o otaqda yoxdur. Orada bir müəllim və bir də şagirdlər var. Proses orada baş verir. Bu prosesin 99 faizi bizim eyni zamanda başlayan 77 min sinifdə baş verir. Bu 77 min sinifdə baş verənlər müəllimin vicdanına bağlıdır.

### "Müəllimlərin işə qəbulunda dürüstlük var, ədalət var"

*- Bu, obrazlı ifadədir, yoxsa doğrudan da 77 min...*

- Bizim 77 minə yaxın sinfimiz var. Bu sualın cavabı ondan ibarətdir ki, 77 min sinifdə baş verən prosesi kamera qoyub izləmək mümkün deyil. Qalır müəllimin vicdanına və s. Ona görə aşağıda düzgün idarəetmə olarsa, təbii ki, yuxarılara doğru yük də bir az azalır. Problem harada baş verir? Biz görəndə ki, bu baş verir, başlayırıq birləşdirməyə və düşünürük ki, düz edirik. Bu, yalnız davranışı düzəldir. Məsələn, müəllimlərin işə qəbulu bir mərkəzdən həyata keçirilir, bu, özünü doğruldur. Burada artıq dürüstlük var, ədalət var. İndi bunu yerlərə versək, nə baş verə bilər? Bu, ayrı bir sualdır. Ona görə bizim cəmiyyətin davranışına və dəyərlərinə qayıdan məsələdir. Baxın, təhsildə səmimi danışırıqsa, 2 sual çox dəyişib. Biz təxminən 15 il bundan qabaq necə müəllim olmaq olar, mən neyləməliyəm ki, müəllim olum kimi suallar eşidirdik. Bunun cavabı var - müəllimlərin işə qəbulu imtahanında iştirak etməlisən. Başqa yol yoxdur. Bu, vahid bir sistemdir. Bu, düzgün sistemdir. Hamıya ədalətli yanaşma var. Başqa ölkələrdə bu belə deyil. Bizim ən çox sevdiyimiz Finlandiyada və Sinqapurda da belə deyil. Müəllim seçimində əvvəlki qaydalara qayıda bilərikmi? Yəqin ki, yox, niyə yox? Çünki bizim hələ də müəyyən mənada arxayınlıq və etibarlılıq məsələmiz var. Bir-birimizə qarşı, söhbət nazirliyin etibarından getmir. İnsanların bir-birinə etibarından gedir. Bu tip dəyərlər - etibar etmək, məsuliyyətli olmaq, öz işinə dürüst yanaşmaq, yerlərdə müəyyən mənada əminlik yaratmağa qədər biz daha çox mərkəzləşdirilmiş sistemlərdən istifadə etmək məcburiyyətində qalacağıq. Bu, yaxşıdır, pis - sözün düzü, mən bu sualı dəqiq cavablandıra bilmərəm, çünki kontekstdən asılıdır.

### "Təhsil hamının işidir"

*- Sizin bu gün şəklinizi çəkib və bir neçə il bundan sonrakı şəklinizlə müqayisə etmək istərdim. Çünki siz çox ağır bir yükün altına girmisiniz. Lakin üzünüzdə bir əminlik var. Necə bilirsiniz, bir neçə ildən sonra da bu əminlik hissi qalacaq? Siz bir neçə ildən sonra da bu işin öhdəsindən gəldiyinizə dair Azərbaycan Prezidentinə hesabat verə biləcəksinizmi?*

- Mən sualı belə qoymazdım. Niyə qoymazdım? Çünki təhsil sisteminin bir adamdan asılı olmasına inanmıram. Ümumiyyətlə, istənilən bir işin baş verməsi üçün hər adam öz işini yaxşı görməlidir - vaxtında və düzgün. O zaman iş alınır. Bunun nümunələri var. Deyək ki, bizim olimpiadalar. Son illərdə uşaqlar orada yaxşı medallar qazanırlar və s. Olimpiadalar niyə uğurludur? Çünki hərə öz işini düzgün qurur, uşaqlar oxuyur, müəllimlər dərs keçir, valideynlər dəstəkləyir, koordinatorlar olimpiadaların, müsabiqələrin dürüstlüyünu təmin edir. Logistika ilə məşğul olanlar onların biletlərini vaxtında alır, onlar artıq bir gün əvvəl yola düşürlər və s. Yəni, hərə öz işini düz görəndə bizdə nəsə alınır. Bu, birincisi. İkincisi təhsil, mən düzdü, Təhsil naziriyəm, məncə Təhsil nazirinin işi təhsili idarə etmək, tənzimləmə prosesini düzgün etməkdir. Amma təhsil hamının işidir. Yəni, məktəb kimə məxsusdur, çox vacib sualdır. Kənddəki məktəb kimindir. Mənim deyil, hər halda. O kənddə olan adamlarındır, çünki o kənddə olanların uşaqları oxuyur. Bir cavab da var. Azərbaycanda doğulmuş vətəndaş bu ölkənindir. İkincisi, onun valideynlərinindir. Üçüncüsü, müəlliminin şagirdidir. Təhsil Nazirliyi üçün təhsilalandır və s. Yəni, hərə öz işini düz görməlidir. Hərə öz işini düz görmürsə, bu, qətiyyən məsuliyyəti kiminsə boynuna atmaq deyil, məsuliyyəti paylaşmaqdır. Biz bunu başa düşmürüksə, bir adamdan möcüzə gözləyiriksə, onda böyük ehtimalla sizin sualınızın cavabı yoxdur. Yəni, bu alınmayacaq, mümkün deyil. Bir adamın transformasiyası, hətta Təhsil Nazirliyinin belə imkanları məhduddur. Məncə, bizim əsas mesajımız bu olmalıdır ki, evdə, məktəbdə hərə öz işini düz görsün. Nazirliyin öz işini düz görməyinə mən söz verirəm, qurumun rəhbəri olaraq. Amma ailələrdə ev mühitinin yaxşılaşdırılmasına biz dəstək göstərməyə hazırıq və bu işi etməliyik. Lakin hər birimiz, valideynlər öz məsuliyyətini başa düşməlidir ki, insanın yetişməsində onun çox böyük payı var. Amma mən əmin deyiləm bizim hansımızın daha çox payı var - mənim, yoxsa uşağın ata və anasının? Biz 1 milyon 600 min məktəblidən danışırıq. Amma bu məsuliyyət paylaşılır, paylaşmağa hazıram. Amma mənim məsuliyyətimdirmi? - bu, ayrı sualdır. Bu mənada hərə öz işini düz başa düşəndə, gözləntilər düzgün formalaşanda, yəni, gözləntiləri biz düzgün formalaşdırmalıyıq. Yəni, bu, bizim işimizdir. Yeri gələndə sizin də, mənim də işimdir, hamımızın işidir. Uğurlu oluruqsa, hamımız uğurlu oluruq. Uğursuz oluruqsa, hamımız uğursuz oluruq. Dərsliklərdə ola bilsin, bir-iki səhv olsun. Məsələ bu deyil. Məsələ budur ki, 99 faiz hərf səhvi olmayan məzmunu uşağa düzgün çatdıra bilirikmi, gəlin ondan danışaq. Ötən il uşaqlar 700 bal toplaya bilməmişdilər. İmtahanda dəyişiklik olmuşdu. İmtahanlar yeni idi və s. Cəmiyyətin birinci sualı bu idi ki, uşaqlar niyə 700 bal yığmadı? Məncə, bu sual, ümumiyyətlə, səhvdir. Bu il isə yığdı, nə baş verdi. Biz öz arzumuza, təhsil öz məqsədlərinə çatdımı? Mənə elə gəlir ki, çatmadı. Təhsil ümumiyyətlə, heç vaxt öz məqsədinə çatmır. Çünki onun qabağında həmişə yeni məqsədlər yaranır. Həmişə dəyişən dünyaya uyğunlaşa bilmək kimi məqsədi var onun. Bu mənada uğurlu olmaq çox nisbidir, amma mükəmməl olmaq, yəqin ki, mümkün deyil. Ancaq daha yaxşı olmaq olar. Mükəmməllik həmişə çətindir. Həmişə nələrsə çatmayacaq. Amma bundan daha yaxşı etmək olar. Bu işdə məsuliyyət ən vacib faktordur. Hesab edirəm ki, nöqsanlar olacaq. Amma hesab edirəm ki, daha yaxşı etmək mümkün olacaq. Burada iştirakçılıq və digər maraqlı tərəflərin yaxından bu işə meyil etməsi ən vacib faktordur.

### "Qınaqdan dəstəyə keçmək vacib məsələdir"

*- Bəşəriyyət ciddi rejimdə fəaliyyət göstərir. Pandemiya şəraitidir. Eyni zamanda müəllimlərimizin keyfiyyətinə də sizin münasibətinizi soruşmaq istəyirəm. Biz adi vəziyyətdə, normal şəraitdə yaşamış insanlar olaraq təbii ki, müəllimlərimizi də, həkimlərimizi də bu mühitin formalaşdırdığı vahidlər kimi qəbul edirik. Bu baxımdan, müəllimlərimizin keyfiyyəti sizi razı salırmı?*

- Bildiyiniz kimi, ümumiyyətlə, müəllimlərlə bağlı yaxşı xəbər ondan ibarətdir ki, son dövrlərdə müəllimlərin istər əməkhaqlarının artırılması, istər onların rəğbətləndirilməsi istiqamətində çox böyük addımlar atılır, çox böyük işlər görülür. Fürsətdən istifadə edib ölkə rəhbərliyinə təhsil işçiləri adından öz minnətdarlığımı bildirirəm. Çünki bu dəyişikliklər müəyyən mənada tarixi əhəmiyyət daşıyır. Yəni, bu gün Azərbaycan kəndində müəllim, bəlkə də ən yüksək əməkhaqqı alan insandır. "El bilir ki, sən müəllimsən.." ifadəsi də yarandı və s. Müəllimliyə gənclərin də gəlişi və yüksək bal toplayan, müəllim olmaq istəyən və s. bu işlər onu göstərir ki, müəllim nüfuzu 10 il bundan əvvəlki dövrlərlə müqayisə edildikdə fərqli bir səviyyədədir. Bu, nailiyyətdir və buna sevinməliyik. Bu keyfiyyət sualına cavab verir. Daha yaxşı edə bilərik. Amma eyni zamanda başa düşməliyik ki, bütün baş verənlərin səbəbkarı müəllim deyil, müəllim də bu ölkənin vətəndaşıdır, onun da öz ailəsi var, qayğıları, həyatı var və s. Daim müəllimlərə dəstək olmaq lazımdır, məncə. Müəllimi qınamadan dəstəyə keçid çox vacibdir. Biz hardasa problem görəndə birinci reaksiyamız qınamaqdır. Şikayəti qaldırmaq və qınamaq ki, mən gördüm ki, problem var, niyə bunu həll etmirsiniz. Fərqi yoxdur, hansı səviyyədən danışırıqsa. Amma dəstək çox vacibdir. Problem varsa, onu necə həll edək? Yəni, məsələn, pandemiya problemi var. Biz bunu dana bilmərik. Bunun konkret günahkarını tapmaq çox çətindir. Göstərək ki, filankəs edib. Kimdir günahkar - yanaşma bu olmamalıdır. Yanaşma bu olmalıdır ki, biz nə edək? Həll yolu nədir? Gəlin bu istiqamətdə öz beynimizi və səylərimizi birləşdirək. Məsələn, biz danışırıq, yeni norma nədir, bir sinifdə 30, 20 uşaq olmalıdır, yoxsa 15 uşaq? Sualın 2 cavabı var. Biri çox texniki cavabdır. Bunu səhiyyədən olan həmkarlarımızla bir yerdə cavablandırmağa çalışırıq ki, yoluxma 15 uşaq olanda necə təsir edir, 10 uşaq olanda necə təsir edir. Oradan gələn cavaba uyğun olaraq biz bunu tənzimləyə bilərik. Bu məsələnin texniki tərəfidir. Bəli, növbəti tədris ilində uşaqlar siniflərə daha az sıxlıqda gəlməlidir. Bunu başa düşürük ki, əvvəlki kimi yox, yarımsiniflər, yarımqruplar şəklində olmalıdır. Uşaqların üçdə biri də ola bilər hətta. Yəni, söhbət bundan gedir. Amma məsələnin digər tərəfi davranış tərəfidir. Yəni, sinfə gələn müəllimin, şagirdin psixoloji durumu çox vacib məsələdir. Biz ona çətin dövrdə hansı dəstək veririk, bu zəmanədə 20 şagirdin qabağına çıxan müəllimə cəmiyyət çox böyük dəstək verməlidir. Necə ki, biz həmin dəstəyi öz həkimlərimizə verməliyik. Bu dövrdə həkimlərimizin, səhiyyə işçilərimizin böyük mənəvi dəstəyə ehtiyacı var. Bizim borcumuzdur onlara dəstək vermək. Bu mənada qınaqdan dəstəyə keçid ən vacib məsələdir və müəllimlərimizin daha yaxşı olması üçün həm onlara dəstək olmalı, həm də bir qədər əvvəl danışdığımız o müqəddəslik - emosional müqəddəsliyə doğru getməliyik.

### "Hər bir müəllim daim hazırlıqlı olmalıdır"

*- Bəs, müəllimlərin səviyyəsi, sertifikasiya barədə nə deyə bilərsiniz...*

- Sertifikasiya ilə bağlı mahiyyət nədən ibarətdir? Ondan ibarətdir ki, hər bir müəllim daim hazırlıqlı olmalıdır. Müəllimin hazırlıqlı və müasir tələblərə cavab verməsi təhsilalanın öyrənməsinə təsir edən amildir. Təbiidir ki, insanlar, müəllimlərimiz xüsusilə bundan çox təlaşlanır. Düşünürəm ki, bu, prosesdir. Bunun ədalətli bir proses olmasına söz verirəm. Bu, ədalətli olacaq. Dürüst bir prosesdir. Amma mahiyyəti ondan ibarət deyil ki, hansısa müəllimi işdən çıxardaq, əmək müqaviləsi ləğv olunsun. Mahiyyət ondan ibarətdir ki, müəllim sertifikasiyaya gəlir, özünü müasir tələblə müqayisə edir və başa düşür ki, tələbin səviyyəsindədir, ondan yuxarıdadır və ya ondan aşağıdadır. Aşağıdadırsa, bu halda müəllimə daha bir il vaxt verilir ki, o həmin tələbə gəlib çatsın. Bu, ədalətlidir. Mərhəmət çox önəmli dəyərdir. Amma onu yerində və müvafiq qaydada tətbiq etmək lazımdır. Bu günləri hamıya mərhəmətli olanda uzunmüddətli vədədə biz səmərəliliyi itiririk. Çünki ədalətlilik özü də müəyyən mənada mərhəmətlilikdir. Məsələn, müəllimlərin işə qəbulu imtahanı. Biz bilirik ki, yalnız 8 min insan işə qəbul olunacaq 46 mindən. Bizim bir mexanizm olmalıdır, bu mexanizm də var, o da imtahan mexanizmidir. Nə deməkdir bu? İstənilən halda 38 min adama biz yox deməyə məcburuq, çünki bizim 46 min arzu edənimiz, cəmi 8 min yerimiz var. Bu mənada kimsə deyir ki, mənim 2 balım çatmırdı, qoy gəlim müəllim işləyim. Biz yenə də təhsilimizin harada olmasından danışırıq. Biz deyirik ki, 48 balı olan müəllim ola bilər. Demək 44 balı olan müəllim şərti olaraq deyək ki, Bakıda işləyə bilməz. Şərt bu gün budur. 48 balın nə olduğunu danışa bilərik. Bu, ayrı bir mövzudur. Mənim daima, son 7 ildə Nazirlikdə işlədiyim və müəyyən mənada təəssüflə qarşılaşdığım məsələ ondan ibarətdir ki, bir çox hallarda biz səyləri illərə bağlayırıq, nailiyyətlərə bağlamırıq. Yəni, məsələn, uşaqlar xaricə bu və ya digər yolla ali təhsil almağa gedir, sonra gəlirlər ki, axı bu uşaq 4 il ora gedib-gəlib. Mən başa düşürəm, gedib-gəlib, ancaq biz təhsildən danışırıq, 4 ilin sonunda heç nə öyrənməyibsə, məmur olaraq ona diplom verməyə mənəvi haqqımız yoxdur. Yəni səlahiyyətlərimizi qoyuruq qırağa. Belə bir sual ki, 4 il gedib-gəlib, ona bir mərhəmət edə bilərsinizmi? Məncə bu, düzgün dəyər deyildir. Sadəcə biz mərhəmət edə bilərik, siz yalançı bir mühəndis yaratmaqla yüz minlərlə insana mərhəmət etməmiş olursunuz. Ümumiyyətlə, belə qərarların verilməsində biz fərdi faydalılıq yox, ictimai faydalılığa, məsələnin ictimai əhəmiyyətinə baxmalıyıq.

*- Təşəkkür edirəm Emin müəllim. Azərbaycan tamaşaçılarını yeni dərs ili münasibətilə təbrik edirəm. Bütün tamaşaçılar kimi özümü də çox uğurlu bir Təhsil naziri təyinatı münasibətilə təbrik etmək istəyirəm.*

- Təşəkkürlər, çox sağ olun.

- Biz təxminən 15 il bundan qabaq necə müəllim olmaq olar, mən neyləməliyəm ki, müəllim olum kimi suallar eşidirdik. Bunun cavabı var - müəllimlərin işə qəbulu imtahanında iştirak etməlisən. Başqa yol yoxdur. Bu, vahid bir sistemdir. Bu, düzgün sistemdir. Hamıya ədalətli yanaşma var.
- Olimpiadalar niyə uğurludur? Çünki hərə öz işini düzgün qurur, uşaqlar oxuyur, müəllimlər dərs keçir, valideynlər dəstəkləyir, koordinatorlar olimpiadaların, müsabiqələrin dürüstlüyünu təmin edir.
- Nazirliyin öz işini düz görməyinə mən söz verirəm, qurumun rəhbəri olaraq. Amma ailələrdə ev mühitinin yaxşılaşdırılmasına biz dəstək göstərməyə hazırıq və bu işi etməliyik. Lakin hər birimiz, valideynlər öz məsuliyyətini başa düşməlidir ki, insanın yetişməsində onun çox böyük payı var.
- Müəllimlərlə bağlı yaxşı xəbər ondan ibarətdir ki son dövrlərdə müəllimlərin istər əməkhaqlarının artırılması, istər onların rəğbətləndirilməsi istiqamətində çox böyük addımlar atılır, çox böyük işlər görülür. Fürsətdən istifadə edib ölkə rəhbərliyinə təhsil işçiləri adından öz minnətdarlığımı bildirirəm.
- Müəllimliyə gənclərin də gəlişi və yüksək bal toplayan, müəllim olmaq istəyən və s. bu işlər onu göstərir ki, müəllim nüfuzu 10 il bundan əvvəlki dövrlərlə müqayisə edildikdə fərqli bir səviyyədədir. Bu, nailiyyətdir və buna sevinməliyik.

# “Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkili barədə

## Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı

“Sanitariya-epidemioloji salamatlıq haqqında” Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 fevral tarixli 73-1 nömrəli Qərarı ilə təsdiq edilmiş “Yoluxucu, parazitar və kütləvi qeyri-yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandıqda karantin-təşkilat, profilaktika və digər zəruri tədbirlərin görülməsi Qaydaları”na əsasən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesini sanitar-epidemioloji vəziyyətə uyğun olaraq təşkil etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikasında fəaliyyət göstərən bütün təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin aşağıdakı tarixlərdən əyani formada təşkili təmin edilsin:

   1.1. məktəbəqədər təhsil müəssisələrində - 2020-ci il sentyabrın 15-dən;

   1.2. ümumi təhsil müəssisələrində:

   1.2.1. ümumi təhsilin ibtidai təhsil səviyyəsi (I-IV siniflər) üzrə - 2020-ci il sentyabrın 15-dən;

   1.2.2. xüsusi məktəblərdə, xüsusi internat məktəblərində, ümumtəhsil internat məktəblərində, inteqrasiya təlimli internat tipli təhsil müəssisələrində, inteqrasiya təlimli internat tipli gimnaziyalarda, valideyn himayəsindən məhrum uşaqlar üçün ümumtəhsil internat məktəblərində - 2020-ci il sentyabrın 15-dən;

   1.2.3. ümumi təhsilin məktəbəhazırlıq mərhələsi (5 yaş) üzrə - 2020-ci il oktyabrın 1-dən;

   1.2.4. ümumi təhsilin ümumi orta təhsil səviyyəsi (V-IX siniflər) üzrə - 2020-ci il oktyabrın 1-dən;

   1.2.5. ümumi təhsilin tam orta təhsili səviyyəsi (X-XI siniflər) üzrə - 2020-ci il oktyabrın 15-dən;

   1.3. peşə təhsili müəssisələrində:

   1.3.1. qısamüddətli kurslar üzrə - 2020-ci il oktyabrın 1-dən;

   1.3.2. peşə təhsilinin bütün səviyyələri üzrə - 2020-ci il oktyabrın 15-dən;

   1.4. ali və orta ixtisas təhsili müəssisələrində:

   1.4.1. I kurs tələbələri üçün - 2020-ci il oktyabrın 1-dən;

   1.4.2. II və yuxarı kurs tələbələri üçün siyahısı Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə razılaşdırılmaqla və hər bir ixtisasın xüsusiyyəti nəzərə alınmaqla təhsil müəssisələrinin müəyyən etdiyi ixtisaslar üzrə - 2020-ci il oktyabrın 15-dən;

   1.5. uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərində yaş qruplarından və siniflərindən asılı olaraq bu Qərarın 1.2-ci bəndində göstərilən tarixlərdə.

2. Bu Qərarın 1.2.3-1.2.5-ci, 1.3.1-ci, 1.3.2-ci, 1.4.2-ci yarımbəndlərində və 1.5-ci bəndində nəzərdə tutulan təhsil müəssisələrində, habelə “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan digər təhsil müəssisələrində əyani formada təhsil bərpa olunanadək 2020-ci il sentyabrın 15-dən tədris və təlim-tərbiyə prosesinin distant (məsafədən) formada təşkili təmin edilsin.

3. Nəzərə alınsın ki, Azərbaycan Respublikasının bütün ərazisində və ya ayrı-ayrı inzibati ərazi vahidlərinin ərazisində sanitar-epidemioloji vəziyyətin əhalinin sağlamlığına təhlükə yaratmadığı barədə müvafiq olaraq Azərbaycan Respublikasının Baş dövlət sanitariya həkiminin və ya Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin gigiyena və epidemiologiya mərkəzlərinin müvafiq rəyi olduğu halda, təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin əyani formada aparılması bu Qərarla müəyyən edilən tarixlərdən əvvəl bərpa edilə bilər.

4. Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkilinin müvəqqəti Qaydalarını 10 (on) gün müddətində hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsinlər.

5. Azərbaycan Respublikasının Təhsil Nazirliyi, tabeliyində təhsil müəssisələri olan digər icra hakimiyyəti orqanları və dövlət mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər və özəl təhsil müəssisələrinin təsisçiləri:

   5.1. təhsil müəssisələrində tibbi-profilaktik, dezinfeksiyaedici və digər qabaqlayıcı tədbirləri mütəmadi davam etsinlər;

   5.2. təhsil müəssisələrinə buraxılış rejiminin sanitar-epidemioloji tələblər nəzərə alınmaqla təşkilini təmin etsinlər;

   5.3. təhsilalanların sıxlığı yüksək olan təhsil müəssisələrində siniflərin/qrupların yarımqruplara bölünməsi, yaş qrupları/kursları üzrə dərs və dərsdənkənar məşğələlərdə növbəlilik rejiminin tətbiqi, dərs/məşğələ otaqlarında sosial məsafənin gözlənilməsi, dərs/təlim və dərsdənkənar/praktiki məşğələ saatlarının və dərslərarası/məşğələlərarası fasilələrin diferensiallaşdırılması və optimallaşdırılması, habelə təhsilverənlərin yaşına və sağlamlıq vəziyyətinə görə “COVID-19” xəstəliyinə yoluxma riskinin yüksək olmasından asılı olaraq təlim və tədris prosesinə cəlb edilməsi məsələlərini təlimin və tədrisin təşkili zamanı nəzərə alsınlar;

   5.4. hava-damcı yolu ilə keçən yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandığı zaman Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 1 may tarixli 161 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ərazisində hava-damcı yolu ilə keçən yoluxucu xəstəliklər zamanı karantin nəzarətinə götürülmə və təcrid olunma Qaydaları”na uyğun tədbirlər görsünlər və müvafiq inzibati ərazi vahidinin ərazisində sanitar-epidemioloji vəziyyətin əhalinin sağlamlığına təhlükə yaratdığı barədə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin gigiyena və epidemiologiya mərkəzlərinin rəyi əsasında Azərbaycan Respublikasının Təhsil Nazirliyini məlumatlandırmaqla təhsil müəssisəsinin və ya ayrı-ayrı siniflərin (qrupların) fəaliyyətinin dayandırılması barədə qərar qəbul etsinlər;

   5.5. bu Qərarın qüvvədə olduğu müddətdə təhsilalanların və təhsilverənlərin iştirakı ilə tədris prosesindən kənar kütləvi tədbirlərin keçirilməsini təxirə salsınlar;

   5.6. bu Qərarın icrası ilə bağlı digər zəruri tədbirlərin görülməsini təmin etsinlər.

6. Bu Qərar 2020-ci il noyabrın 2-dək qüvvədədir.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş Naziri**

*Bakı şəhəri, 29 avqust 2020-ci il*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 10 may tarixli 77 nömrəli Qərarı ilə təsdiq edilmiş “Evdə təhsil almaq hüququ verən xəstəliklərin siyahısı və evdə təhsilin təşkili Qaydaları”nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Təhsil Nazirliyinin təklifinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 10 may tarixli 77 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 314; 2010, № 3, maddə 264; 2015, № 12, maddə 1581; 2020, № 2, maddə 216) ilə təsdiq edilmiş “Evdə təhsil almaq hüququ verən xəstəliklərin siyahısı və evdə təhsilin təşkili Qaydaları”nın “I. Evdə təhsil almaq hüququ verən xəstəliklərin Siyahısı” bölməsi yeni redaksiyada təsdiq edilsin (əlavə olunur).

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş Naziri**

*Bakı şəhəri, 27 avqust 2020-ci il*

# “Müasir təhsil, texnologiya və keyfiyyət. Uşaqlar müzakirəyə qoşulur”




## Təhsil nazirinin müavini onlayn konfransda iştirak edib

Avqustun 31-də “Müasir təhsil, texnologiya və keyfiyyət. Uşaqlar müzakirəyə qoşulur” adlı onlayn konfrans keçirilib.

Onlayn konfransda Təhsil nazirinin müavini Firudin Qurbanov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aynur Sofiyeva pandemiya dövründə tətbiq olunan karantin rejimi çərçivəsində təhsilin təşkili məsələləri ilə bağlı “Uşaq Səfirlər Məclisi”nin üzvlərini maraqlandıran sualları cavablandırıblar.

Konfransı giriş sözü ilə açan Komitə sədrinin müavini Aynur Sofiyeva “Uşaq Səfirlər Məclisi” üzvlərinin təşəbbüsləri əsasında bu istiqamətdə keçirilən tədbirləri müsbət qiymətləndirib. Təhsilin uşaqların həyatında mühüm rolunu, eyni zamanda, hazırda davam edən pandemiya şəraitində tədrisin təşkili məsələsinin aktual olduğunu qeyd edib. Aynur Sofiyeva bildirib ki, uşaqlar pandemiya dövründə təhsilin təşkili istiqamətində onları maraqlandıran bir çox sualları ümumiləşdirərək belə bir görüşün keçirilməsi xahişi ilə Komitəyə müraciət ediblər.

Daha sonra çıxış edən Təhsil nazirinin müavini Firudin Qurbanov uşaqları salamlayaraq xüsusi karantin rejimi dövründə təhsilin təşkili məsələləri barədə onlara ətraflı məlumat verib. Təhsil sahəsinin pandemiya şəraitində bir sıra çağırışlarla qarşılaşdığını vurğulayan nazir müavini informasiya və kommunikasiya məsələlərinin hazırkı dövrdə öz aktuallığını daha da artırdığını diqqətə çatdırıb. Firudin Qurbanov uşaqlara daim öz üzərində işləmək, çalışqan olmaq kimi tövsiyələr verərək, dövlətə, valideynə hörmətin, vətənə sevginin uşaqlar qarşısında bir vəzifə olaraq qoyulmasının əhəmiyyətini vurğulayıb.

Konfransın moderatoru, “Uşaq Səfirlər Məclisi”nin həmsədri Aydan Hacıyeva uşaqların təklifi ilə konfransın təhsil məsələlərinə həsr edilməsinin onlar üçün əhəmiyyətli olduğunu və Təhsil nazirinin müavini ilə həmsöhbət olmaq fürsəti yaratdığına görə Komitə rəhbərliyinə, eləcə də Firudin Qurbanova təşəkkürünü bildirib.

Daha sonra uşaqların pandemiya şəraitində təhsildə yeni layihələrin həyata keçirilməsi, növbəti dərs ilinin təşkili qaydaları, şagirdlərin internetə çıxış imkanlarının artırılması, xüsusilə sağlamlıq imkanları məhdud uşaqların onlayn təhsilə əlçatanlığının təmin edilməsi, pandemiya dövründə xaricdə təhsil imkanları, peşə təhsilinin təşviqi istiqamətində çoxsaylı sualları cavablandırılıb.

Uşaqlar tərəfindən səsləndirilən suallara cavab olaraq Firudin Qurbanov pandemiya ilə bağlı mövcud vəziyyətə uyğun yeni və səmərəli metodların işlənib hazırlandığını, həmçinin uşaqların təhlükəsizliyi nəzərə alınaraq dərslərin növbəlilik prinsipi əsasında təşkilinin nəzərdə tutulduğunu bildirib. Nazir müavini həmçinin müasir texnologiyalar vasitəsilə peşə təhsilinin təşviqinin aparılması istiqamətində görüləcək işlərdən danışaraq peşə təhsilinin önəmi barədə uşaqlara məlumat verib.

Konfransın sonunda moderator Aydan Hacıyeva ətraflı cavab və tövsiyələrə görə Komitə sədrinə və Təhsil nazirinin müavininə minnətdarlığını bildirib.

# Kadr hazırlığının müasir dövrün çağırışlarına uyğun həyata keçirilməsi vacibdir

## Təhsil nazirinin müavini tələbələrlə görüş keçirib



Avqustun 27-də Təhsil nazirinin müavini Firudin Qurbanov ali təhsil müəssisələrində təhsil alan tələbələrlə onlayn görüş keçirib.

Görüşdə ali təhsil müəssisələrində Tələbə Həmkarlar və Tələbə Gənclər Təşkilatlarının sədrləri, eləcə də Prezident təqaüdü ilə təltif olunmuş tələbələr iştirak ediblər.

Təhsil nazirinin müavini Firudin Qurbanov pandemiya və postpandemiya dövründə ali təhsil müəssisələri qarşısında duran vəzifələr, yeni dərs ilinə hazırlıqla bağlı tədrisin təşkilinə dair görülən işlərdən, bu sahə üzrə dünya təcrübəsindən, mövcud şəraitdə məsafədən tədrisin təşkilinin əhəmiyyətindən, qarşıda duran yeni çağırışlardan və onların həlli yollarından söz açıb.

Firudin Qurbanov qeyd edib ki, pandemiyanın təsirlərini minimuma endirmək məqsədilə ölkə rəhbərliyi tərəfindən vaxtında və çevik qərarların qəbul edilməsi, qabaqlayıcı tədbirlərin görülməsi ölkəmizdə pandemiyanın geniş yayılmasının qarşısını alıb. Azərbaycanda təhsilin fasiləsizliyinin təmin edilməsi istiqamətində çevik tədbirlər planlaşdırılıb və həyata keçirilib.

Eyni zamanda, nazir müavini müasir texnologiyaların sürətlə inkişaf etdiyi dövrdə əmək bazarında yeni peşələrin yarandığını və ali təhsil müəssisələrində kadr hazırlığının müasir dövrün çağırışlarına və əmək bazarının tələblərinə uyğun həyata keçirilməsinin vacibliyini diqqətə çatdırıb.

Görüşdə həmçinin ölkə rəhbərliyi tərəfindən qəbul olunmuş “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı”nın yeni nəsil mütəxəssislərin hazırlanmasında və Azərbaycan ali təhsil sisteminin məzmun və keyfiyyət göstəricilərinin beynəlxalq ikili diplom proqramları ilə müasirləşdirilməsində əhəmiyyəti xüsusi vurğulanıb. Pandemiya və post-pandemiya dövründə gənclərin rolu, bilikləri, araşdırma qabiliyyətlərinin artması və müxtəlif sahələrdə qlobal fəaliyyətə gənclərin cəlb edilməsi əsas məqsədlərdən biri kimi qeyd edilib.

Sonra tələbələri maraqlandıran suallarla bağlı geniş fikir mübadiləsi aparılıb. Bundan əlavə, tələbələr ötən dərs ilində pandemiya şəraitində tədrisin məsafədən təşkili təcrübəsinə əsaslanaraq yeni tədris ilinə hazırlıq məqsədilə fikirlərini bölüşüb və bir neçə təkliflər səsləndiriblər.

Görüşün sonunda Firudin Qurbanov tələbələrə yeni tədris ilində uğurlar arzulayıb.

# “Postpandemiya dövründə birlik”




“BİR” tələbə-könüllülər üçün “Postpandemiya dövründə birlik” adlı layihənin icrasına başlanılıb. Layihə Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi və “Bir könüllü” Tələbələrin Əməkdaşlığı İctimai Birliyinin təşkilatçılığı ilə həyata keçirilir.

Layihənin məqsədi COVID-19 pandemiyası ilə bağlı tələbə-könüllülər arasında maarifləndirmə işinin aparılması, onların həyat keyfiyyətini yüksəltmək, karyerada uğur qazanmaq, bilik və bacarıqlardan düzgün istifadə etməyə şərait yaratmaqdır. 2 ay davam etdiriləcək layihə pandemiyadan sonrakı həyat tərzi, təhsil, karyera mövzularını əhatə edir və hər istiqamət çərçivəsində təlim, görüşlərin təşkili planlaşdırılır.

Layihədə iştirak edəcək tələbə-könüllülər üçün sessiya günlərinə əsasən qeydiyyat linki açılacaq. Hər sessiya üçün qeydiyyatdan keçmiş və tələblərə uyğun olan 100 nəfər layihədə iştirak hüququ qazanacaq. Layihə 3 əsas və 6 alt mövzusu olan sessiyalardan ibarət olacaq. Hər sessiyada bir spikerin çıxışı nəzərdə tutulub.

Sonda bağlanış mərasimi keçiriləcək və tələbə-könüllülər arasında “Öz həyat tərzini karantin dövründə necə məhdudlaşdırmamaq olar?” mövzusunda müzakirə təşkil ediləcək.

# Xaricdə təhsil almaq istəyənlərin diqqətinə!

Təhsil Nazirliyi xaricdə təhsil almaq istəyən abituriyent, tələbə və onların valideynlərini seçim edərkən daha diqqətli olmağa çağırır.

Əvvəlki illərin təcrübəsi göstərir ki, bu sahədə vasitəçi şirkətlərin xidmətlərindən istifadə edən bir çox vətəndaşlar çətinlik və mənfi hallarla üzləşirlər. Belə hallarla rastlaşmamaq üçün vətəndaşlara təhsil müəssisəsini və tədris proqramını (ixtisası) seçməzdən öncə müstəqil olaraq, birbaşa həmin təhsil müəssisəsinin özünə müraciət edərək (rəsmi internet səhifəsi vasitəsilə), qəbul şərtləri, təhsil haqqı, yaşayış xərcləri və digər tələblər barədə ətraflı məlumat əldə etməyi tövsiyə edirik.

Eyni zamanda, xaricdə təhsil və xaricdə əldə olunmuş ali təhsil ixtisaslarının ölkə ərazisində tanınması və ekvivalentliyinin müəyyən edilməsi (nostrifikasiyası) ilə bağlı diqqət yetirilməli olan əsas məqamlara (ali təhsil müəssisəsi və tədris proqramının (ixtisasın) aid olduğu ölkədə akkreditə olunması, təhsil müddəti ərzində həmin ölkənin və yerli qanunvericiliyin tələblərinə uyğun olaraq dərslərdə iştirak edilməsi, bakalavriat və magistratura ixtisasları arasında uyğunluq olması, tədris dilində ünsiyyət qura bilmək bacarığının olması, təhsilalma formasının yerli qanunvericiliyin tələblərinə uyğunluğu və s.) dair zəruri məlumatları özündə əks etdirən Təhsildə Keyfiyyət Təminatı Agentliyinin rəsmi internet səhifəsinin (tkta.edu.az) “Nostrifikasiya” və “Mütəmadi verilən suallar” bölmələri ilə tanış ola bilərsiniz.

Xüsusi olaraq vurğulanmalıdır ki, Təhsil Nazirliyi xaricdə təhsil sahəsində, o cümlədən tanınma (nostrifikasiya) prosedurları ilə bağlı heç bir şirkətlə əməkdaşlıq etmir və bu şirkətlərin fəaliyyətlərinə görə məsuliyyət daşımır.

Qeyd olunan məsələlərlə bağlı vətəndaşlara hər hansı şirkət və ya şəxslər tərəfindən verilən vəd heç bir rol oynamır və belə hallarla rastlaşdığınız təqdirdə Təhsil Nazirliyinin “Qaynar xətt” xidmətinə (146-1) məlumat verməyiniz xahiş edilir.

# BMU ilə İnha Universiteti arasında ikili diplom proqramı üzrə müqavilə imzalanıb

## Proqram Azərbaycanda mühəndislik sahəsində təhsilin məzmununun inkişafına kömək edəcək




Bakı Mühəndislik Universiteti (BMU) ilə Cənubi Koreyanın İnha Universiteti arasında beynəlxalq ikili diplom proqramı üzrə müqavilənin onlayn imzalanma mərasimi keçirilib.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Cəsarət Valehovun moderatorluğu ilə keçirilən imzalanma mərasimində Təhsil nazirinin müavini İdris İsayev, Təhsil Nazirliyi Aparatının rəhbərinin müavini, Elm, ali və orta ixtisas təhsili şöbəsinin müdiri Yaqub Piriyev, Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Nicat Məmmədli, Dövlət Proqramı İdarəetmə Qrupunun rəhbəri səlahiyyətlərini icra edən, sektor müdiri Müjdat Həsənov, BMU-nun rektoru, professor Havar Məmmədov, İnha Universitetinin rektoru, professor Myung Vu Ço və universitet heyəti, həmçinin Koreyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Tong Op Kim iştirak edib.

Təhsil nazirinin müavini İdris İsayev ikili diplom proqramı üzrə müqavilənin imzalanmasının əhəmiyyətini vurğulayıb. O, cari ilin əvvəlində İnha Universitetinin nümayəndə heyəti ilə görüşlərin keçirildiyini, eyni zamanda həmin vaxt iki universitet arasında anlaşma memorandumunun imzalandığını diqqətə çatdırıb və indi imzalanan müqavilənin uzunmüddətli əlaqələrin qurulmasına töhfə verəcəyinə ümid etdiyini bildirib. İ.İsayev göstərdikləri əməyə görə Azərbaycan Respublikası Təhsil Nazirliyi, İnha Universiteti və BMU-nun əməkdaşlarına təşəkkür edib. Nazir müavini bu proqramın Azərbaycanda mühəndislik sahəsində təhsilin məzmununun inkişafına kömək edəcəyinə əminliyini söyləyib.

İ.İsayev “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı”nın universitetlər üçün yaratdığı əlavə imkanları qeyd edib. O, mühəndislik sahəsi üzrə həyata keçirilən ikili diplom proqramının yerli proqramların keyfiyyətini artıracağını və yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasına kömək edəcəyini bildirib.

İnha Universitetinin rektoru, professor Myung Vu Ço rəhbərlik etdiyi universitetin tarixi haqqında məlumat verib. 1954-cü ildə Mühəndislik Kolleci kimi fəaliyyətə başlayan İnha Universitetinin bu gün Koreyanın ən üstün keyfiyyətə malik və innovativ universitetlərdən biri olduğunu diqqətə çatdırıb. O, İnha Universitetinin BMU ilə qarşılıqlı faydalı əməkdaşlığı çərçivəsində görəcəyi işlərdən danışıb, beynəlxalq əməkdaşlıq platformalarının əhəmiyyətini vurğulayıb. Azərbaycanla Koreya arasında əlaqələrin inkişafından bəhs edən rektor professorların və gənc tədqiqatçıların ikili proqram səviyyəsində birgə müştərək əməkdaşlıq imkanlarını dəyərləndirib.

BMU-nun rektoru, professor Havar Məmmədov iki ölkənin nüfuzlu ali təhsil müəssisələri arasında ikili diplom proqramının Azərbaycanın gənc mühəndis kadrlarla təmin olunması üçün böyük imkanlar açacağını bildirib. O, gənc universitet olan BMU-nun əldə etdiyi nailiyyətlərə toxunub və müqavilə çərçivəsində İnşaat mühəndisliyi, Elektrik mühəndisliyi, Elektronika mühəndisliyi və İnformasiya texnologiyaları (Bakalavr pilləsi üzrə) ixtisasları üzrə mütəxəssislərin təcrübəli professor-müəllim heyəti tərəfindən hazırlanacağını qeyd edib. Rektor məzun olacaq tələbələrin Azərbaycanın müxtəlif sənaye müəssisələrində çalışaraq ölkəmizin iqtisadi inkişafına öz töhfələrini verəcəklərinə əminliyini ifadə edib.

H.Məmmədov müqavilənin Cənubi Koreya ilə Azərbaycanın təhsil və mədəniyyət sahəsində olan əlaqələrin daha da inkişaf etməsinə öz müsbət təsirini göstərəcəyini diqqətə çatdırıb. 2020-ci ildə Koreya Respublikasının Seconq İnstitutu və İnha Universiteti ilə birgə BMU-nun nəzdində Xırdalan Seconq İnstitutunun təsis edildiyini sözlərinə əlavə edən rektor cari ilin sentyabr ayından tələbələrə, müəllimlərə, Koreya dilini öyrənmək istəyənlərə bu dilin peşəkar koreyalı, həmçinin azərbaycanlı müəllimlər tərəfindən tədris ediləcəyini deyib. Proqram 3+1 modeli əsasında qurulub. Belə ki, ikili diplom proqramına əsasən tələbələr 3 akademik ili BMU-da, 1 akademik ili isə Cənubi Koreyanın İnha Universitetində təhsil alacaqlar. Diplom işini ingilis dilində hazırlayıb müdafiə etdikdən sonra tələbələr iki diplom əldə edəcəklər. Cari proqram tam olaraq dövlət vəsaiti hesabına təmin olunur.

Rektor bildirib ki, COVID-19 pandemiyası dövründə bəzi məhdudiyyətlərin yaranmasına baxmayaraq, BMU bütün imkanlardan səmərəli istifadə edərək tədrisi keyfiyyətli təşkil etməyə çalışacaq, universitetin müasir maddi-texniki bazası, kitabxanası, Texnoparkı, müxtəlif laboratoriyaları tələbə və müəllimlərin ixtiyarında olacaq.

Koreyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Tong Op Kim beynəlxalq ikili diplom proqramı üzrə müqavilənin imzalanması münasibətilə təbriklərini çatdırıb və bu tədbirin iştirakçısı olmaqdan məmnunluğunu bildirib. O, pandemiya səbəbindən mərasimin yüksək səviyyədə onlayn təşkil edilməsini Təhsil Nazirliyi, BMU və İnha Universitetinin məsul əməkdaşlarının işə bəslədikləri xüsusi diqqət və səyin nəticəsi kimi dəyərləndirib.

Səfir Koreya və Azərbaycan arasında diplomatik əlaqələrdən söz açaraq indiyə qədər 2 dövlət arasında dövlət başçıları səviyyəsində qarşılıqlı səfərlərin təşkil edildiyini xatırladıb. Bildirib ki, ölkələrimiz arasında müxtəlif sahələrdə aparılan mübadilə və əməkdaşlığın davamlı olaraq genişləndirilməsi mövcud münasibətlərin gələcəyinin parlaq olacağına əsas yaradır. Əlaqələrin inkişaf etdirilməsi baxımından İnha və BMU arasında ikili diplom proqramı üzrə müqavilənin imzalanması xüsusi əhəmiyyət kəsb edir.

Sonra iki universitet arasında beynəlxalq ikili diplom proqramı üzrə müqavilə imzalanıb.

İmzalanma mərasimi başa çatdıqdan sonra proqrama dair mətbuat konfransı keçirilib. Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Nicat Məmmədli, Təhsil Nazirliyinin Xaricdə təhsil və əcnəbi tələbələrlə iş üzrə sektorun müdiri Müjdat Həsənov, BMU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru Manafəddin Namazov ikili diplom proqramı haqqında ətraflı məlumat verib, eyni zamanda ünvanlanan sualları cavablandırıblar.

## Pandemiya dövründə peşə təhsili müəssisələrində tədrisin təşkili mövzusunda görüş

COVID-19 pandemiyası dövründə peşə təhsili müəssisələrində tədrisin təşkili mövzusunda videokonfrans keçirilib.

Videokonfransda Təhsil nazirinin müavini İdris İsayev, Dövlət Peşə Təhsili Agentliyinin direktoru Pərviz Yusifov və bir sıra peşə təhsili müəssisələrinin rəhbərləri iştirak edib.

Nazir müavini İdris İsayev koronavirus pandemiyası dövründə 2020-2021-ci tədris ilinə hazırlıqla bağlı görülən işlər barədə danışıb. Müxtəlif təkliflər və onların icra mexanizmi haqqında iştirakçılara məlumat verilib.

Görüşdə pandemiya dövründə təşkil olunan teledərslərin, işəgötürənlərlə birgə düzgün peşə seçimi ilə bağlı keçirilən vebinarların əhəmiyyəti vurğulanıb. Bu il ilk dəfə gerçəkləşdirilən peşə təhsili müəssisələrinə mərkəzləşdirilmiş elektron tələbə qəbulu sisteminin üstünlükləri və bunun peşə təhsili almaqda maraqlı olan tələbələrin cəlb edilməsindəki rolu qeyd edilib.

Peşə təhsili müəssisələrinin rəhbərləri yeni tədris ili ilə bağlı fikirlərini bildiriblər. Həmçinin təklif olunan modellər haqqında müzakirələr aparılıb.

# Müəllimlərin işə qəbulu üzrə imtahan prosesi izlənilib



**Ruhiyyə DAŞSALAHLI**

Dünən, müəllimlərin işə qəbulu imtahanlarının 15-ci günündə riyaziyyat və texnologiya fənləri üzrə test imtahanları keçirilib. Təhsil Nazirliyinin tabeliyindəki T.Həsənov adına 23 nömrəli tam orta məktəbdə gedən imtahan prosesini Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva ilə yanaşı, media nümayəndələri də izləyiblər. Təhsil Nazirliyinin təşkil etdiyi mediaturda iştirakçılar imtahan prosesi ilə yaxından tanış olmaq imkanı əldə ediblər.

Nazir müavini pandemiya ilə əlaqədar bu il keçirilən imtahanların təşkilində dəyişikliklər edildiyini, namizədlərin sağlamlığını qorumaq məqsədi ilə əlavə tədbirlər görüldüyünü vurğulayıb. İmtahanların Bakı ilə yanaşı, 17 regionda yaradılmış 32 mərkəzdə keçirilməsinə diqqət çəkib. O, 2020-2021-ci tədris ili üçün keçirilən müəllimlərin işə qəbulu imtahanlarında tətbiq olunan yeniliklərə toxunaraq qeyd edib ki, dəyişikliklər sadəcə pandemiya ilə əlaqədar deyil. Bu il 90 dəqiqə ərzində test suallarına cavab verən namizədlər imtahandan sonra cavablarının təhlilini görmək imkanı əldə edib ki, bu da bir çox baxımdan namizədlərin ürəyindən olub. Belə ki, imtahan bitdikdən sonra 10 dəqiqə ərzində namizədlər suallara cavablarının doğru olub-olmadığını, hətta səhvinin nədə olduğunu öyrənə bilir.

Məhəbbət Vəliyeva tədrisi başqa dildə aparılan bölmələr üzrə imtahanda iştirak edən namizədlərə tövsiyələr də verib. Müvafiq bölmədə vakansiyalar üzrə rəqabətin daha az olduğunu nəzərə alaraq namizədlərin Azərbaycan dilində imtahan verənlərlə müqayisədə daha şanslı olduqlarını vurğulayıb: “Ona görə də siz, sadəcə imtahanları və burada qazanacağınız uğuru düşünün”.

Avqustun 24-dən etibarən yaradılan apellyasiya prosesi barədə jurnalistlərə məlumat verən nazir müavini artıq 1666 nəfərin müraciət etdiyini və tədris ili başlayanadək müraciətlərə baxılacağını deyib.

İndiyədək 4 fənn üzrə maksimum nəticə göstərilib. İmtahanların sentyabrın 8-dək davam etməsi nəzərdə tutulur.

# Müəllim olmaq üçün

## 17 regionda imtahan həyəcanı davam edir

**2020**-2021-ci tədris ili üçün keçirilən müəllimlərin işə qəbulu üzrə müsabiqənin növbəti mərhələsi - test imtahanları davam edir. Avqust ayından start götürən prosesdə 31181 namizəd iştirak edib. Azərbaycan dili və ədəbiyyat fənni üzrə 5028, biologiya fənni üzrə 1151, fizika fənni üzrə 1339, fiziki tərbiyə fənni üzrə 2739, fransız dili fənni üzrə 259, musiqi fənni üzrə 1537, rus dili fənni üzrə 561, rus dili və ədəbiyyatı fənni üzrə 228, təsviri incəsənət fənni üzrə 826, ibtidai sinif müəllimliyi üzrə 9263, Azərbaycan dili fənni üzrə 38, ingilis dili fənni üzrə 4447, alman dili fənni üzrə 158, kimya fənni üzrə 819, riyaziyyat fənni üzrə isə 2788 namizəd imtahan verib. Növbəti günlərdə keçiriləcək test imtahanlarında texnologiya, tarix, coğrafiya və informatika müəllimi olmaq istəyən namizədlər iştirak edəcək. İmtahanlar Bakı, Gəncə, Sumqayıt, Lənkəran, Masallı, Şirvan, Kürdəmir, Ağdaş, Mingəçevir, Bərdə, Ağcabədi, Quba, Şamaxı, Balakən, İsmayıllı, Ağstafa və Tovuz daxil olmaqla ümumilikdə 17 regionda təşkil edilən 32 mərkəzdə keçirilir. Namizədlər 90 dəqiqə müddətində ixtisasa dair 40, təlim strategiyaları və metodikaya dair 20 test tapşırığı olmaqla 60 sualı cavablandırır.

**Ruhiyyə DAŞSALAHLI**



Günel Kərimova



Fidan Qasımova



Şəhla Rəhimova



Aygün Göyüşova

### 60 ballı riyaziyyatçı

Bu həftə mümkün olan ən yüksək nəticə - 60 bal riyaziyyat üzrə imtahanlarda qeydə alınıb. Sentyabrın 2-də Bakı şəhərində imtahan verən Günel Kərimova 2020-2021-ci tədris ili üçün müəllimlərin işə qəbulu müsabiqəsinin riyaziyyat üzrə maksimum nəticə göstərən ilk namizədi olub.

“Azərbaycan müəllimi” qəzetinə bu uğurundan danışan G.Kərimova imtahanın təşkilindən razı qalıb: “İstər pandemiya təhlükəsinə qarşı, istərsə də şəffaflığın qorunması məqsədilə görülən tədbirlər yüksək səviyyədə idi. Suallar da orta çətinlikdə sayılırdı. Hər hansı sualın cavablandırılmasında əziyyət çəkmədim”.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin məzunu riyaziyyat müəllimliyi üzrə bakalavr səviyyəsini 2012-ci ildə bitirib. Sonra Bakı Dövlət Universitetində “Kompüter elmləri” ixtisası üzrə magistratura təhsili alıb: “Bu il yaxşı hazırlaşdım. Yüksək nəticə əldə edəcəyimə inanırdım. 60 bal mənim üçün gözlənilən olsa da, balımı ekranda görəndə çox sevindim. Nizami rayonunda yaşayıram. Yaşadığım yerə yaxın məktəblərdən birində işləmək istəyirəm”.

### SABAH-ın tələbəsi də fərqləndi

Fidan Qasımova 58 balla kimya müəllimliyi üzrə müsabiqəyə qatılanlar arasında seçilib. O, sadəcə bu imtahanda yox, tələbəliyindən fərqlənməyə başlayıb. Əvvəlcə, 2016-cı ildə Bakı Dövlət Universitetinə daxil olub. Həmin il 500-dən yuxarı bal toplayan və müəllimlik ixtisasını seçən abituriyentlərdəndir. 2017-ci ildə imtahan verib və SABAH qruplarına seçilənlərdən olub. Universiteti fərqlənmə diplomu ilə bitirərək təhsilini davam etdirmək üçün növbəti səviyyə - magistraturaya qəbul imtahanlarına qatılıb. Bu dəfə də seçilib və 70 balla artıq Gəncə Dövlət Universitetinin “Ekoloji biologiya” ixtisası üzrə magistrantıdır. Gəncədə yaşayan gənc namizəd növbəti tədris ilindən həm təhsilini davam etdirəcək, həm müəllim kimi sinfə girəcək: “Hədəfim ixtisasım üzrə yaxşı nəticə göstərmək idi. Hədəfimə nail oldum”.

Fidan Qasımova tərəddüd etdiyi suallarda səhvə yol verdiyini deyir: “Cavabları yazarkən tərəddüd etdiklərim oldu. Ancaq vaxtım qalarsa, üzərində düşünərəm deyib keçmişdim. Ancaq vaxtım qalmadığı üçün yenidən həmin suallara qayıda bilmədim. İmtahandan sonra səhv etdiyimə bir daha əmin oldum”.

Buna baxmayaraq, F.Qasımova təəssüflənmir. Maksimum bal olmasa da, yaxşı nəticə sayılır və bunu əldə edən tək-tük namizədlərdəndir. Yaşadığı ərazidə istənilən məktəbdə işləməyə hazırdır. O məktəbin rayon mərkəzindən nə qədər uzaq olacağının onun üçün heç bir fərqi yoxdur.

### İngilis dili müəllimliyi üçün ən çox balı 6 ildir işləməyən namizəd topladı

2020-2021-ci tədris ili üçün keçirilən müəllimlərin işə qəbulu imtahanlarında 58 bal toplayaraq ən yüksək nəticə göstərən Şəhla Rəhimova Azərbaycan Dillər Universitetinin məzunudur.

“İngilis dili və ədəbiyyatı” ixtisası üzrə Xəzər Universitetində magistratura səviyyəsində təhsil alıb. Sonra Bakı Britaniya Məktəbinə imtahanla işə qəbul olunub. 3 il burada təcrübə qazansa da, işini yarımçıq qoyub. Ailə qurduqdan sonra müəllimliyə fasilə vermək məcburiyyətində qalıb: “Artıq 6 ildir ki, işləmirəm. Ancaq müəllimlik fəaliyyətimi davam etdirmək niyyətindəyəm. Mərdəkanda yaşadığım üçün buradakı məktəblərin birində işləmək istəyirəm. Ona görə də bu il ilk dəfə olaraq müəllimlərin işə qəbulu müsabiqəsinə qatıldım”.

Şəhla Rəhimovanın sözlərinə görə, ilk dəfə imtahan verdiyi və heç bir xüsusi hazırlıq keçmədiyi üçün özündən o qədər də böyük nəticə gözləməyib: “Son 6 ildə dildən istifadə etməmək məni çox geri saldı. İşləməyə qərar verdikdən sonra isə evdə, uşaqların qayğılarından imkan tapdıqca hazırlaşdım. Bazam olsa da, ixtisasım üzrə 6 ildə unutduqlarım çox idi. Ona görə də yüksək nəticə göstərməyi yox, işə girməyi hədəfləmişdim. İmtahan suallarının hamısına cavab yazıb qurtaranda hələ vaxta 45 dəqiqə vardı. Bir az da ləngiyib suallara yenidən baxdım. Daha gözləyə bilməyib imtahanı bitirdim və 58 balı görəndə hədsiz sevindim. O qədər sevinmişdim ki, imtahan verdiyimiz binada qarşılaşdığım tələbə yoldaşımı belə gözləyə bilmədim. Ona görə də bu gün nədə səhv etdiyimi bilmirəm. Cavablarında tərəddüd etdiyim suallar olsa da, konkret hansı sualda - ixtisasda, yoxsa metodikada səhv etdiyimi bilmirəm”.

Ş.Rəhimova test imtahanından məntiqə aid sualların çıxarılmasına da münasibət bildirib: “Magistraturaya imtahan verəndə 100 sualdan 50-si məntiq idi. Mən 31 suala düzgün cavab yazmışdım. Riyazi və məntiqi biliyim hər zaman yaxşı olub. Ona görə də testdən çıxarılan məntiq və sayı artan kurikulum suallarından qorxmurdum”.

Qarşıda isə müsahibə mərhələsi var: “Deyirlər, müsahibə çətin olacaq. Odur ki, ona ayrıca hazırlaşmalıyam”.

### Koronavirus müəllim olmaq sevgimi öldürə bilmədi

Aygün Göyüşova alman dili müəllimliyi üzrə 2020-2021-ci tədris ili üçün keçirilən müəllimlərin işə qəbulu imtahanlarında 53 bal toplayıb. Onun nəticəsi alman dili imtahanlarında builki ən yüksək baldır. Bu, onun üçün 53 bal toplaması qədər sevindirici olub: “Qazaxda yaşayıram. 12 ildir ki, Azərbaycan Dillər Universitetini “Alman dili müəllimliyi” ixtisası üzrə bitirmişəm. Ancaq həvəslə seçdiyim və sevərək yiyələndiyim müəllimliklə bir gün belə məşğul ola bilməmişəm. Neçə ildir rayonumuzdan vakansiya çıxarılmır. Mən də bu səbəbdən müsabiqəyə qatılmağa həvəs göstərmirdim”.

Builki hazırlıqlar da A.Göyüşova üçün rahat başa gəlməyib. Hazırlaşdığı son aylarda COVID-19-a yoluxan müəllimliyə namizəd müəllimlik üçün onu da yenib: “Bir az da koronavirus məni zəiflətdi. Ancaq müəllim olmaq sevgimi o da öldürə bilmədi. Xəstəliyə rəğmən bu imtahanlarda uğur qazanmaqda qərarlıydım. Ancaq bu nəticəni gözləmirdim. 2018-ci ildə bir dəfə müsabiqəyə qatıldım. Tamamilə hazırlıqsız, sadəcə tanışlıq məqsədilə girdiyim həmin imtahandan az bal toplamışdım. Bu il 53 balı görəndə çox sevindim”.

A.Göyüşova 1 ay internetdən yüklədiyi materiallar əsasında gecə-gündüz demədən hazırlaşıb. Hazırlığı nəticə verib: “Kurikulumdan 19 suala düzgün cavab yazdım. Əslində, bu imtahanda 57 bal toplaya bilərdim. İmtahanda bütün suallara cavab yazdım. İmtahan vaxtına hələ qalırdı. Ona görə cavablarımı yoxlamaq üçün yenidən nəzər saldım. O sırada bir neçə sualın cavabını dəyişdim. Etdiyim bu dəyişiklik səhv idi. Doğru cavabı yanlışa çevirdim. Nəticədə 57 deyil, 53 bal topladım”.

Ancaq bu, müəllimliyə namizəd üçün son deyil. Onun həyəcanlı gözləyişi hələ davam edir: “Deyəsən, bu il də vakansiya olmayacaq. Qazax, ya Ağstafa, sərhəd, ya da mərkəz demədən işləməyə hazıram. Dərsin çoxluğu da maraqlandırmır məni. Bircə sinif mənə müəllim desə, ona da razıyam. Təki illərdir arzusunda olduğum peşə nisgilim sona çatsın!”.

### Apellyasiya müraciətləri davam edir

Avqustun 24-dən etibarən işə qəbul imtahanları ilə bağlı apellyasiya prosesinə başlanılıb. İndiyədək 1666 namizəd apellyasiya müraciəti edib, 1087 müraciət emal olunub, 579 müraciət hazırda araşdırılır. Yeni tədris ili başlamamışdan öncə namizədlərin apellyasiya müraciətlərinə baxılacağı bildirilir.

Xatırladaq ki, namizədlər şəxsi səhifələrində imtahandan bir gün sonra saat 14:00-da aktivləşdirilən müvafiq xanaya daxil olaraq imtahandan sonrakı 2 gün ərzində apellyasiya müraciəti edə bilirlər.

### Müsahibələr mərhələli şəkildə həyata keçiriləcək

Müəllimlərin həyəcanla gözlədiyi müsahibə mərhələsinə gəlincə, müsabiqənin test imtahanları başa çatdıqdan sonra müvafiq keçid balını toplayan namizədlər vakansiya seçimi mərhələsində iştirak edəcək.

Təhsil Nazirliyinin İnsan resursları şöbəsinin müdiri Eşqi Bağırov “Azərbaycan müəllimi” qəzetinə açıqlamasında bildirib ki, tədris ilinin başlamasına qısa müddət qalması ilə əlaqədar ümumi təhsil müəssisələrində kadr təminatının daha çevik həyata keçirilməsi məqsədilə cari il vakansiya seçimi mərhələsi nəticəsində vakant yer tutmaq hüququ qazanmış namizədlər ilkin olaraq müddətli əmək müqaviləsi ilə işə qəbul ediləcəklər.

Sözügedən kontingent üçün müsahibələr mərhələli şəkildə mövcud vəziyyət nəzərə alınaraq onlayn və ya ənənəvi qaydada təşkil olunacaq. Müsahibədən uğurla keçən namizədlər ilə müddətsiz əmək müqaviləsi bağlanılacaq. “Müsahibələr vaxtaşırı keçiriləcək. Kimin üçünsə ola bilər oktyabr ayında, bir başqasının müsahibəsi noyabr, hətta dekabr ayında baş tuta bilər. Proses davamlı olacaq”.

Qeyd edək ki, müəllimlərin işə qəbulu üzrə müsabiqənin ilkin mərhələsi başa çatdıqdan sonra tutulmayan və ya yeni yaranan vakant yerlərə müvafiq keçid balını toplayan namizədlərin müddətli müqavilə ilə işə qəbulu nazirlik tərəfindən proqram təminatı tətbiq edilməklə mərkəzləşmiş qaydada tədris ili boyu mütəmadi olaraq həyata keçiriləcək. Mövcud qaydalara əsasən müsabiqədə keçid balı namizədlərin test imtahanında göstərdiyi nəticələr və vakansiyaların sayı nəzərə alınmaqla Təhsil Nazirliyi tərəfindən müəyyən edilir.

# Müəllimlərin işə qəbulu müsabiqəsində yüksək nəticə göstərənlər

## Azərbaycan dili və ədəbiyyat fənni üzrə













## İbtidai sinif üzrə













## İngilis dili fənni üzrə













## Biologiya fənni üzrə












# Təhsildə yeni çağırışlar

⇦ Əvvəli səh.1

Oruc MUSTAFAYEV

## Onlayn Beynəlxalq Təhsil Forumu keçirilib

Deməli, biz təhsil işçiləri olaraq mənəviyyatın inkişafına töhfə verməliyik. Elə təhsildə yeni çağırış da kamil insanlar yetişdirmək yönündədir. Kamilliyə gedən yolun kriteriyası şəxsi mənafənin ictimai mənafədən üstün olmamasıdır. Təhsil milli və ümumbəşəri dəyərlərin çürüməsinə yol verməməlidir”. Professora görə, təhsilə baxış dəyişməlidir.

### Təhsil Nazirliyi ölkədə sanitar-epidemioloji vəziyyəti diqqətdə saxlayır

Forum iştirakçılarını Təhsil naziri Emin Əmrullayev adından salamlayan Təhsil nazirinin müşaviri Elnur Nəsibov tədbirin işinə uğurlar arzulayıb, eləcə də forumun təşkilatçıları olan TAM-a, Təhsil Nazirliyi yanında İctimai Şuraya təşəkkürlərini bildirib. Qeyd edib ki, qlobal pandemiya təkcə Azərbaycan üçün deyil, əksər dünya ölkələrinin təhsil sistemləri üçün yeni çağırışlar yaradıb. “Təsadüfi deyildir ki, bu gün keçirilən beynəlxalq forumun da mövzusu məhz təhsildə yeni çağırışlara həsr olunub. Lakin nəzərə almaq lazımdır ki, pandemiyanın yaratdığı vəziyyət yalnız çağırış deyil, həm də yeni imkanlar təqdim edir”. O əlavə edib ki, forumda 4 mindən artıq iştirakçı qeydiyyatdan keçib, bir neçə min insan isə tədbirin gedişini




canlı izləmək imkanı qazanıb. E.Nəsibov bildirib ki, bu cür ənənəvi keçirilən beynəlxalq tədbirlər, əlbəttə, daha böyük maliyyə və insan resursları, təşkilati işlər tələb edir.

### Sağlamlıq və təhsil hüquqları qəbul olunan hər bir qərarda öz əksini tapır

E.Nəsibov qeyd edib ki, yaranmış şəraitdə Təhsil Nazirliyi ölkədə olan sanitar-epidemioloju vəziyyəti diqqətdə saxlayır və təhsilin mümkün qədər səmərəli formada təşkili istiqamətində, prosesin əvvəlindən etibarən ciddi tədbirlər görməkdədir. “Təhsil nazirinin və Nazirliyin yüksək vəzifəli şəxslərinin təhsil sisteminin bütün iştirakçıları - ali məktəblərin və peşə məktəblərinin müəllim və tələbələri, məktəb direktorları, müəllimlər, valideynlər, şagirdlərlə görüşləri keçirilir. Ayrıca olaraq ictimai rəy öyrənilir və məlumatlar təhlil olunur. Sağlamlıq və təhsil hüquqları dövlətimiz və nazirliyimiz üçün çox vacibdir və qəbul olunan hər bir qərarda öz əksini tapır. Bu hüquqların təmin olunması istiqamətində bütün kollektivimiz gərgin iş rejimində çalışır. Eyni zamanda, qlobal səviyyədə Ümumdünya Səhiyyə Təşkilatı və UNİCEF-in tövsiyələri nəzərə alınır. Təhsil Nazirliyi tərəfindən ölkə ərazisində mövcud məktəblərin sahəsi, şagird sıxlığı, epidemioloji vəziyyət nəzərə alınaraq diferensial yanaşmanın tətbiq olunması təklif olunub. Nazirlər Kabinetinin 29 avqust 2020-ci il 312 saylı qərarı ilə xüsusi karantin rejimi dövründə təhsil müəssisələrinin fəaliyyətini tənzimləyən qrafik müəyyən olunub”.

E.Nəsibov diqqətə çatdırıb ki, məktəbəqədər təhsil müəssisələrinin sentyabrın 15-dən, ümumtəhsil müəssisələrində əvvəl ibtidai, daha sonra isə orta və tam orta təhsil səviyyəsinin mərhələli şəkildə fəaliyyətə başlaması nəzərdə tutulur: “Peşə təhsili müəssisələrində, oktyabrın 1-dən qısamüddətli kursların, oktyabrın 15-dən peşə təhsilinin bütün səviyyələri üzrə, ali və orta ixtisas təhsili müəssisələrində I kurs tələbələri üçün oktyabrın 1-dən, II və yuxarı kurs tələbələri üçün əsasən məsafədən təhsil barədə qərar verilib. Təhsil Nazirliyi təhsil müəssisələrində tədrisin, təlim-tərbiyə prosesinin təşkilinin müvəqqəti qaydaları üzərində çalışır və bu qaydaları 10 gün ərzində Nazirlər Kabinetinə təqdim edəcək. Burada əsas prinsiplərimiz öyrənənlərin və öyrədənlərin sağlamlığı, təhlükəsizliyi və səmərəli iş imkanlarının nəzərə alınması, məsafədən tədrisin təşkili, təhsilin qiymətləndirilməsi prosesinə önəm verməkdir. Eyni zamanda, dəyişən vəziyyətə uyğun olaraq qərarların qəbul edilməsi də Nazirlik tərəfindən daim diqqətdə saxlanılacaq”.

### Müəllimlərin yükü çox böyükdür

Forumun əsas məruzəçisi kimi PISA-nın (Program for International Student Assessment - Şagird nailiyyətlərinin beynəlxalq qiymətləndirilməsi proqramı) direktoru Andreas Şlayxerin çıxışı maraqla qarşılanıb. A.Şlayxer “Pandemiya və postpandemiya dövründə təhsilin keyfiyyətini yüksəltməyin yolları” mövzusunda geniş təqdimatla çıxış edib. Onun çıxışında “Şagird keçmişdəki ənənələrlə deyil, gələcək zaman üçün hazırlanmalıdır” fikri ana xətt kimi keçib. O, bir daha vurğulayıb ki, müasir təhsilin məqsədi bilik verməkdən daha çox, yaradıcı yanaşmalar, tənqidi düşüncə öyrətməkdir.

“Azərbaycan müəllimi” qəzetinin pandemiya dövrünün fəsadlarının növbəti PISA tədqiqatlarına təsiri və COVID-19 kontekstində müəllimlərin bacarıqlarının qiymətləndirilməsi barədə beynəlxalq tədqiqatın keçirilməsinin mümkünlüyünə dair sualını cavablandıran PISA-nın direktoru Andreas Slayxer qeyd edib ki, hər şey zamandan asılıdır. “Əgər belə bir şey lazım olsa, onun baş tutması mümkündür. Yeni dərs ilində tədrisin ən yüksək səviyyədə olması üçün əlimizdən gələni edəcəyik. Şagirdlərin tam yüksək səviyyədə təhsil almasına çalışacağıq”. Pandemiya dövründə müəllim hazırlığına dair sualımıza gəlincə, A.Şlayxer bildirib ki, böhran dövründə bir çox müəllim onlayn şəkildə şagirdlərə dərs keçdi. Şagirdlər müəyyən biliklər əldə etdi. Ancaq yeni təhsil ilində müəllimlərə bundan daha artıq işləmək lazım gələcək. Müəllimlərin yükü çox böyükdür. Bu təhsil ilinin yüksək səviyyədə olması müəllimlərin əlindədir.

Daha sonra forumda Əməkdar müəllim Asif Cahangirov, “The Global Prize -2018” müsabiqəsinin qalibi Andria Zafirakou, Britaniya Təhsildə Liderlik, İdarəetmə və İnzibatçılıq Cəmiyyətinin rəhbəri, Honkonqdakı ESF Sha Tin Junior məktəbinin direktoru Rehana Shanks, UNICEF-in Azərbaycan üzrə təhsil proqramlarının rəhbəri Leyla Həsənova, Milli Məclisin Elm və təhsil komitəsinin üzvü, millət vəkili Ceyhun Məmmədov, Şimalı Kıprıs Türk Cümhuriyyətinin ikinci prezidenti və sabiq təhsil naziri Mehmet Ali Talat və başqaları çıxış ediblər.

Forumda pandemiya dövrünün təhsil çağırışları bir sıra nüfuzlu təhsil ekspertləri tərəfindən müzakirə olunub, çoxsaylı suallar cavablandırılıb.

---

# “STEAM Azərbaycan”

⇦ Əvvəli səh.1

Niyazi RƏHİMOV

## Birgə və inteqrasiya olunmuş şəkildə tədris

Təhsildə STEAM

### İnkişaf etmiş ölkələrdə STEAM təhsili

STEAM təhsili dünya təhsil sistemində keyfiyyətin yüksəldilməsi ilə bağlı bir çox ölkələrin diqqətini cəlb edir. Məsələn, ABŞ təhsil sistemində məktəbəqədər yaş qrupundan başlayaraq XII sinfə qədər bütün səviyyələrdə inteqrasiya olunmuş STEAM proqramı tətbiq olunur. Bundan əlavə, bəzi ölkələrdə (ABŞ, Sinqapur, İsrail, Türkiyə və s.) xüsusi STEAM məktəbləri, STEAM mərkəzləri yaradılıb.

### STEAM şagirdləri həyata hazırlayır

STEAM təhsil metodu şagirdlərə beş sahənin - elm (science), texnologiya (technology), mühəndislik (engineering), incəsənət (art) və riyaziyyatın (math) birgə və inteqrasiya olunmuş şəkildə tədrisi ideyası üzərində qurulub. STEAM kurikulumu fənlərarası, praktik və tətbiqi dərslərdən ibarətdir. Elmin və texnologiyaların öyrədilməsində ənənəvi yanaşmadan fərqli olaraq, STEAM təhsili praktik məşğələlər vasitəsilə elmi, texniki biliklərin gündəlik həyatda tətbiqini şagirdlərə göstərir. Bu yanaşma şagirdlərə mühəndislik səriştələri öyrədir, real həyatda problemlərin həlli zamanı tətbiqini aşılayır. STEAM layihəsi şagirdləri hansı peşə seçmələrindən asılı olmayaraq həyata hazırlayır.

### Komanda şəklində iş

Şagirdlərdə düşüncə və təfəkkürü daha da dərindən formalaşdırmaq layihənin əsas məqsədlərindən biridir. Hədəflərdən biri də şagirdlərdə istehsal təfəkkürünün formalaşmasıdır. Yəni, şagird qarşısındakı alətin necə hazırlandığını, hansı materiallardan istifadə olunduğunu düşünərək, sual verərək öyrənmək bacarığına malik olmalıdır. Şagirdlər birgə işlədiyi vaxt verilən alətlərlə prototiplər yarada bilir. Sonra şagirdlər bunu konveyr üsulu ilə bazarda necə hazırlamaq lazım olduğunu düşünürlər.

Şagirdlərin komanda şəklində işləməsi də əsas prinsiplərdəndir. Çünki bu layihə əsaslı öyrənmədir. Məsələn, riyaziyyatı daha yaxşı bilən şagird istehsalın riyazi tərəflərini analiz edirsə, rəsm bacarığı olan digər şagird isə onun dizayn işini görür. Beləliklə, komanda şəklində görülən iş sayəsində mükəmməl nəticə ortaya çıxır. Bu, həm də fənlərarası inteqrasiyanı ön plana çıxarır.

### “STEAM” çərçivəsində əməkdaşlıq

Layihə çərçivəsində uzun müddət STEAM təhsili tətbiq olunan xarici ölkələrin təhsil ocaqları ilə əməkdaşlıqlar qurulub. Belə ki, ötən il 1-31 mart və 17 noyabr -10 dekabr tarixlərində hər birində 50 nəfərlik müəllim heyəti olmaqla iki qrup İsrailə ezam olunmuşdur. Əməkdaşlıq çərçivəsində beynəlxalq təlimlərə cəlb olunan müəllimlər İsrailin müxtəlif şəhərlərindəki ORT məktəblərinin STEAM təhsil təcrübəsi, bu təhsilin təhsilalanlara qazandırdığı bilik və bacaqrıqlar ilə yaxından tanış olmuşlar. Təlimlərlə yanaşı, müəllimlərin Elm müzeyi və İnnovasiyalar Mərkəzinə ekskursiyası da təşkil olunmuşdur.

Bu istiqamətdə beynəlxalq əməkdaşlıq qurulan ölkələrdən biri də STEAM təhsilini uğurla tətbiq edən Türkiyə Cümhuriyyətidir. Təlim məqsədilə 08.12.2019 -22.12.2019 tarixlərində 25 nəfərlik müəllim heyəti Türkiyəyə ezam olunmuşdur. Əsasən Coğrafiya, Biologiya, Kimya, Riyaziyyat, İnformatika, Fizika ixtisasları olmaqla ölkənin müxtəlif bölgələrindən müəllimlər təlimə cəlb edilmişdir. Təlimlər Baxçaşəhər Kolleci və Universitetlərində STEAM proqramına uyğun modullar üzrə mütəxəssislər tərəfindən aparılmış, müəllimlər microbit, arduino, insansız uçan hava aparatları və onların idarə edilməsi, LEGO EV3, autodesk modulları üzrə bilik və bacarıqlara yiyələnmişlər. 3D printer və CNC lazer kəsici cihazları ilə tanış olmuş və 3D ölşülü müxtəlif əşyalar cap etmişlər. Təlim zamanı müəllimlər müxtəlif istehsal sahələrində olmuş, sənayedə istifadə olunan robotların iş prinsipləri ilə yaxından tanış olmuşlar.

Ümumilikdə, Beynəlxalq təlimlərdə Mərkəzlə yanaşı, respublikanın 21 şəhər və rayonundan təlimlərə qatılan müəllimlər Proqramlaşdırma və Robotics modulları üzrə - microbit, arduino, autodesk, LEGO EV3, insansız uçan hava aparatları və onların idarə olunması, biomimikriya, nanotexnologiya, neuroscience modulları istiqamətində bilik və bacarıqlara yiyələnmişlər. Təhsildə, həmçinin müxtəlif istehsal sahələrinə getməklə sənayedə istifadə olunan 3D printerlərin və CNC lazer kəsici cihazların quruluşu, iş prinsipi ilə əyani tanış olmuşlar. Təlim əsnasında müəllimlər müxtəlif məktəb, kollec və universitetlərdə olmuş, dərslərdə iştirak etmiş, STEAM -ın tədris metodikası haqqında ətraflı məlumat almışlar.

Ölkəmizdə STEAM təhsilinin tətbiqində yaxından iştirak edəcək, STEAM dərslərinin tətdris etməsi üçün müəllim-mütəxəssislərin hazırlanması məqsədilə mütəmadı olaraq ixtisasartırma təlimləri keçirilir.





### İstifadə olunan metodologiya və pedaqoji konsepsiyalar

Layəhənin tətbiqi zamanı müxtəlif metodlardan istifadə olunur. Bununla yanaşı pedaqoji meyarlar da əsas götürülür. Məsələn, layihə əsaslı öyrənmə - PBL, fənnlərarası inteqrasiya və fənlərararası öyrənmə, araşdırma əsaslı öyrənmə, dizayn əsaslı öyrənmə, oyun əsaslı öyrənmə, analogiyaya əsaslanan öyrənmə , mobil əsaslı öyrənmə və kiçik dəyişikliklər etməklə, düzəltməyə əsaslanan öyrənmə metodlarından daha çox istifadə olunur.

3D dizayn modelləşdirmə (Tinkercad), 3D printerlə çap etmə, mikrobit platfotmasında blok proqramlaşdırma, sensorlarla layihələrin icrası (Coding) isə layihə zamanı vacib olan əsas alətlərdir.

### Məktəblərdə STEAM dərsləri

Layihənin tətbiq olunduğu bütün təhsil ocaqları maddi-texniki baza ilə təmin olunub, kadr hazırlıqları həyata keçirilib. Hazırda Bakının 42 məktəbində (biri özəl məktəb olmaqla) STEAM dərsləri tədris olunur. 2020-2021-ci tədris ilində layihə ölkə üzrə 141 ümumtəhsil məktəbində 6 və 7-ci sinif şagirdləri olmaqla 933 sinif və 24542 şagirdi əhatə edəcək. Yeni tədris ilində həftədə 2 saat olmaqla təhsilalanlarda qurma, yaratma, müxtəlif layihələrin reallaşdırılması, 3D printerlərdə çap, micro:bitlə proqramlaşdırma və tətbiqi prosesləri, CNC lazer kəsiciləri, pilotsuz uçan hava aparatları (tədris dronları) üçün hazırlanmış kurikulum üzrə STEAM dərslərinin tədrisinə başlanılacaqdır.

### STEAM-ın əhatə dairəsi genişləndirilir

Qarşıdan gələn 2020/2021-ci tədris ilində 7-ci siniflərin təlim məzmununa Nanotexnologiya və Biotexnologiya modullarının gətirilməsi, kodlaşdırma istiqamətində yeni platformanın (Arduino) tətbiqi (Robototexnika), Uçan aparatlar (dronlar), CNC maşınlarında işləmə bacarıqları və s. nəzərdə tutulur.

Yeni tədris ilindən etibarən respublika üzrə müəllimlərin STEAM yönümlü təhsil istiqamətində maarifləndirilməsi, kadr hazırlığı məqsədi ilə təlim keçilməsinin davam etdirilməsi nəzərdə tutulur. Layihənin 3-cü ilində STEAM-ın əhatə edəcəyi şagird sayı 50000-100000 nəzərdə tutulur.

“STEAM Azərbaycan” layihəsi çərçivəsində Gəncə və Şirvan şəhərlərində STEAM mərkəzlərinin inşasına başlanılmış və hazırda Şirvan STEAM mərkəzinin açılışı üçün son tamamlama işləri aparılmaqdadır. STEAM mərkəzlərinin fəaliyyətinə uyğun olaraq maddi-texniki baza ilə təmin olunması üçün lazımi işlər görülmüşdür.

Layihə çərçivəsində 2020-ci ilin noyabr ayında ölkə üzrə STEAM Festivalının keçirilməsi də nəzərdə tutulub.

### Layihə bəhrəsini verir

2020-ci ilin mart ayında ölkə ərazisində COVID-19 virusunun yayılması ilə əlaqədər təhsil müəssisələrinin fəaliyyəti müvəqqəti olaraq dayandırıldı. Bütün bunları nəzərə alan layihə heyəti mövcud tibbi ehtiyacların qarşılanması məqsədilə bir sıra təşəbbüslərin icrasına başlamışdır. Tibbi ləvazimatların, ayrı-ayrı cihaz və avadanlıqların müxtəlif detallarının 3D printerlər vasitəsilə sınaq istehsalına start verilmişdir. Sınaq mərhələdə tibbi personal üçün üz qoruyucularının istehsalı uğurla tamamlanmış, gündəlik istehsal sürəti 150 vahiddən 550 vahidə çatdırılmışdır. Pandemiya dövrü ərzində ümumilikdə 5000 ədəd üz sipərləri istehsal edilərək müxtəlif tibb (klinikalar, xəstəxanalar, poliklinikalar) və təhsil ocaqlarına paylanılmışdır.

# Rəqəmsal idarəetməyə keçid qaçılmazdır



**İlqar TALIBOV,**

*S.C.Pişəvəri adına Respublika Humanitar Fənlər Gimnaziyasının direktoru, Qabaqcıl təhsil işçisi*

“2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”nın uğurlu icrası nəticəsində əldə olunan təcrübə və nailiyyətlərə əsasən Azərbaycanda müasir kompetensiyalara malik insan kapitalının dayanıqlı inkişafının təmin edilməsi, eləcə də Azərbaycan Respublikası vətəndaşlarına aparıcı ölkələrin ali təhsil standartları çərçivəsində keyfiyyətli təhsil almaq imkanının yaradılması məqsədilə “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” hazırlanmışdır. Proqramın əsas hədəfi ən qabaqcıl elmi nailiyyətlərdən, innovativ təlim-tədris texnologiyalarından yararlanaraq, ölkəmizdə yeni nəsil mütəxəssislərin yetişdirilməsi, Azərbaycan təhsil sisteminin məzmun və keyfiyyət göstəricilərini beynəlxalq proqramlar ilə müasirləşdirilməsidir.

Təhsil sahəsində islahat proqramının əsas məqsədi məktəbəqədər, orta, ali, ali təhsildən sonrakı peşə və ona uyğun əlavə təhsil pillələrində toplanmış potensialı saxlamaq və inkişaf etdirmək, təhsil sistemini tənzimləyən müvafiq normativ hüquqi bazanı yaratmaq, cəmiyyətin Azərbaycan Respublikasının Konstitusiyasında, Təhsil Qanununda təsbit olunmuş tələbləri, siyasi, iqtisadi və sosial həyatın demokratikləşməsinə əsaslanan dövlət siyasətini həyata keçirən mütəxəssislərin ekosistemidir. Təhsil ekosisteminin bütün səviyyələrində idarəetmə tələb olunur. Rəhbərliyin əsas vəzifəsini bir komandanın təşkili, vəzifə bölgüsünün düzgün həyata keçirilməsi, fəaliyyətin planlaşdırılması, inteqrasiyası, təşkili, həyata keçirilməsi, nəzarəti, monitorinq və qiymətləndirilməsi əhatə edir.

Bütün bu ekosistemin əsas fonunda təhsilin idarə edilməsi dayanır. Təhsilin idarə edilməsi potensial imkanları yüksək olan təhsilverənlərin, təhsilalanların və valideynlərin istedad və imkanlarını ümumi təhsil məqsədlərinə cəlb etmə və istiqamətləndirmə prosesidir.

Habelə, təhsilin idarə edilməsi deyərkən strategiya, planlama, komanda işinin təşkili, strukturlara nəzarət, elektron tətbiqlərin istifadəsi, sosial şəbəkələrin idarə olunması, ümumilikdə maddi və qeyri-maddi resursların birləşdiyi forma və üsullar da nəzərdə tutulur.

Komanda işi - təhsil, tədris, bilik, bacarıq, imkan, dəyər, inanc, vərdiş və münasibətlərin təmin edilməsidir.

Təhsilin idarə edilməsində ən son qanun və qərarlara riayət etməklə müasir standartlara cavab vermək əsas amildir. Bu baxımdan “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası və “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası” ilə müəyyən edilmiş fəaliyyət istiqamətləri nəzərə alınmaqla umumi təhsil pilləsi üzrə tam orta təhsil sahəsində yeni Dövlət Proqramının qəbul edilməsi arzuolunandır.

Hesab edirəm ki, təhsilin idarə edilməsi digər idarəetmə strukturlarından fərqlənir. Belə ki, burada əsas hədəf insan faktorudur. Təhsilin idarə edilməsi prosesində insan psixologiyası, sosial mühit, təhsil səviyyəsi, potensial imkanlar və s. dəyərləndirilməlidir. Dünya təhsil sisteminə liderlik edən Cənubi Koreya məhz bu prinsiplər əsasında fəaliyyət göstərməklə keyfiyyət göstəricilərinə görə ən yaxşı təhsil sistemi olan ölkələr sırasında iqtisadi kontekstinə görə birincidir. Bu baxımdan Koreya təhsil sisteminə inteqrasiya etməklə yerli şəraitə uyğunlaşdırılmış müəyən inkişaf aspektləri əldə etmək mümkündür. Belə ki, şəhər mərkəzləri və bölgələrdə yerli aspektləri nəzərə almaqla təhsilin məzmununa və keyfiyyətinə ciddi dövlət nəzarəti vacibdir. Təhsilverənlərin inkişafyönümlü fəaliyyəti izlənməli, müqayisə aparılmalı, təhlil edilməlidir. Təbii ki, ölkəmizdə bu istiqamətdə müəyyən addımlar atılıb və atılmaqdadır. 2012-ci ildən həyata keçirilən müəllimlərin diaqnostik qiymətləndirilməsi buna nümunədir. Tədris prosesində müəllimlərin təkcə nəzəri bilikləri deyil, həm də praktik bacarıqları, psixoloji vəziyyətləri, sosial mühiti, yaş xüsusiyyətləri əhəmiyyət daşıyır. Bəzi müəllimlər imtahanlarda və ya təhsil şöbələri tərəfindən aparılan sorğularda özlərini kifayət qədər göstərə, dəyərləndirə bilmirlər. Belə hallar üçün lokal idarəetmə şəraitində qiymətləndirmə mexanizmi hazırlamaq və o əsasla dəyərləndirmə aparıb, təhlil və nəticələri ümumiləşdirmək faydalı olar. Bu baxımdan təhsilin idarə edilməsi istiqamətində çoxşaxəli layihələrin həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Məlumdur ki, layihə mövcud problemin həll edilməsi istiqamətində atılan addımlar toplusudur. Günün tələbi ilə səsləşən layihələrdə həm müəllimlərin potensial imkanları, həm də praktik bacarıqları nümayiş etdirilə bilir. Yaponiya Təhsil Nazirliyinin əsas hesab etdiyi aşağıdakı istiqamətlər üzrə fəaliyyət planı bu baxımdan nümunəvidir.

**Təlimə mentor dəstəyi**

İmtahan və monitorinqlərin aparılması,

Fəaliyyətin aktuallığı və ya proaktiv (aktiv idarəetmə mexanizmi) şəkildə planlaşdırılması.

Böyük Britaniyanın təhsil xidmətləri göstərən “QS World University Rankings” agentliyinin dünyanın ən yaxşı təhsil sistemlərinə həsr olunan ən son tədqiqatı reytinqinə əsasən Amerika Birləşmiş Ştatları 2018-ci il üzrə dünyanın ən yaxşı təhsil sisteminə malik ölkələrin sıyahısına başçılıq edir. QS reytinqi bütün dünyada ali təhsil sistemlərini müqayisə edib və onları 4 əsas kriteriya üzrə qiymətləndirib:

* Sistemin gücü (universitetlər reytinqlərdə necə işləyirlər);

* Əlçatanlığı (bu ölkədə insanlar asanlıqla ali təhsilə giriş imkanı əldə edə bilirmi);

* Aparıcı təhsil müəssisəsi (ölkənin ən yaxşı məktəb və universiteti nə dərəcədə yaxşı işləyir);

* İqtisadi kontekst (ali təhsilə milli investisiyaların təsiri).

Reytinqin metodologiyasına nəzər salsaq burada təhsil idarəçiliyinin gücünü və siyasətini aydın görə bilərik.

İdarəetmənin ölçü meyarı - nəticədir. Nəticə müsbətdirsə, idarəetmə səmərəlidir və əksinə - nəticə mənfidirsə, idarəetmə səmərəsizdir. Səmərəli fəaliyyət səmərəli nəticə deməkdir. İdarəetmənin səmərəliliyi, ilk növbədə, kollektivin psixoloji-sosial vəziyyətinin - durumunun inkişafı səviyyəsi ilə ölçülə bilər. Psixo-sosial vəziyyət yaxşılaşırsa idarəetmə səmərli, pisləşirsə səmərəsiz hesab edilə bilər.

Keçən əsrin əvvəllərində, əslən alman olan iqtisadçı alim Harrinqton Emerson idarəetmə elminə məhsuldarlıq anlayışını daxil etmişdir. Təhsilverənlərin idarəedilməsində məhsuldarlıq göstəricisi təhsilalanların nəticələridir.

COVID-19 pandemiyası bütün dünyada ənənəvi şəraitdən tam fərqli bir situasiya yaratmış, sosial-iqtisadi prioritetlərə yenidən baxılmasını zəruri etmişdir. Hər bir ölkə bu situasiyadan daha az itkilərlə çıxmaq üçün xüsusi strategiyalar müəyyənləşdirmişdir. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən dəfələrlə vurğulandığı və beynəlxalq aləmdə etiraf edildiyi kimi, Azərbaycan pandemiya dövründə ən uğurlu strategiya seçən ölkələrdən biri olmuşdur.

Pandemiyanın təsirlərini minimuma endirmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vaxtında və çevik qərarların qəbul edilməsi, qabaqlayıcı tədbirlərin görülməsi COVID-19-un geniş yayılmasının qarşısını almışdır. İlk növbədə səhiyyə sistemi gücləndirilmiş, sosial cəhətdən həssas əhaliyə davamlı dəstək mexanizmləri tətbiq edilmiş, iqtisadi dayanıqlığın təmin edilməsi ilə bağlı əhəmiyyətli addımlar atılmışdır. Bütün ölkə ictimaiyyəti vaxtında atılmış bu addımları böyük rəğbətlə qarşılamışdır. Təqdirəlayiq haldır ki, pandemiya ilə mübarizədə Azərbaycan təcrübəsi bir sıra ölkələr tərəfindən öyrənilmiş və tətbiq edilmişdir.

Hər bir problem öz unikal həlləri ilə yeni nəsil imkanlar yaradır. Günümüzün dünya miqyaslı aktual problemi hesab edilən sözügedən şəraitdə yeni imkanlar axtarışı bizə səmərəli, rəqəmsal idarəetmə mexanizmini yaratmağı zəruri etdi. Rəqəmsal texnologiyaların gətirdiyi köklü dəyişikliklər təhsil sisteminə də müsbət istiqamətdə təsir göstərdi. Mövcud şəraitdə elektron resurslardan istifadə, təhsil-tədris xidmətlərinin effektivliyini daha da artırmaq istiqamətində rəqəmsal idarəetmə üçün yaxşı bir fürsət oldu. COVID-19 pandemiyası dövründə Təhsil Nazirliyi tərəfindən təhsilin fasiləsizliyinin təmin edilməsi məqsədilə həyata keçirilən fəaliyyətlər də rəqəmsal idarəetmənin labudlüyünü ortaya çıxardı.

Ümumi təhsil müəssisələrinə mərkəzləşdirilmiş müsabiqə əsasında müddətli müqavilə ilə işə qəbul olunmuş müəllimlərin daimi əsaslarla işə qəbul edilməsi üçün elektron müsabiqə və onlayn müsahibələr təşkil edildi. Hazırda müəllimlərin işə qəbulu üzrə imtahanlar (MİQ) həyata keçirilməkdədir.

Pandemiya insanların bütün həyat tərzinə, davranışına və fəaliyyətinə güclü təsir etmişdir. Bu səbəbdən pandemiya və postpandemiya dövrü rəqəmsal idarəetmənin səmərəliliyi, daha çevik və optimal məzmun və tədris strategiyalarının tətbiqi, innovasiyaların təşviq edilməsi ilə bağlı təşəbbüslərin genişləndirilməsi ön plana çıxmışdır.

* Ümumtəhsildə distant təhsil təcrübəsinin daha geniş tətbiq edilməsi;

* Texnoloji təchizat və keyfiyyətli internet bağlantısının təmin edilməsi məsələlərinin həll edilməsi;

* Yeni təhsilalma forması ilə bağlı qanunvericilik bazasının təkmilləşdirilməsi vacib istiqamətlər hesab olundu.

Pandemiyanın ortaya çıxartdığı vacib məqamlardan biri də ondan ibarət oldu ki, həm təhsilverənlər, həm də təhsilalanlar mükəmməl rəqəmsal bacarıqlara malik olmalıdırlar. Belə bacarıqların olmaması yüksək texnologiyalardan və müasir tətbiqlərdən istifadə imkanlarını məhdudlaşdırır, idarəetməyə, təhsilə və digər fəaliyyətlərə ciddi maneələr yaradır. Bu baxımdan əsas fəaliyyət istiqamətlərindən biri də rəqəmsal bacarıqların formalaşdırılmasına xidmət edən tədbirlərin əhatə dairəsinin genişləndirilməsi olmalıdır.

Təhsil naziri Emin Əmrullayev 28.08.2020-ci il tarixində Azərbaycan Televiziyasının “Hədəf” proqramının qonağı olarkən günün aktual suallarını cavablandırmış və bütün məsələlərə aydınlıq gətirmişdir. “Müəllimlər müasir biliklərin innovativ ötürücüsü olmalıdır”. Bunu Təhsil naziri Emin Əmrullayev öz çıxışında qeyd etmişdir.

Bu yanaşmadan deyə bilərik ki, müəllimlər müasir biliklərin innovativ ötürücüsü olmalıdırsa, məktəb rəhbərinin rəqəmsal idarəetmə bacarığına malik olması labüddür.

Pandemiya başlanan ilk andan etibarən Təhsil İnstitutu aktual onlayn və televiziya layihələri, habelə pilot tədbirlər planı hazırlamış və pandemiya dövründə təhsilin inkişafyönümlü davamlı konsepsiyası yaradılmışdır.

Davosda Azərbaycanın da təmsil olunduğu “Education and Leadership Now and in Post-Pandemic World” mövzusunda 16.06.2020-ci il tarixdə keçirilən onlayn beynəlxalq elmi-praktik konfransında pandemiya dövrü ilə bağlı tədbirlər planı rəsmiləşəndən sonra Azərbaycanda bu istiqamətdə atılan nümunəvi addımların beynəlxalq arenalarda dəstəkləndiyi və alqışlandığı müşahidə edildi.

Bəli, ölkə başçımızın çıxışlarında dəfələrlə vurğulandığı kimi: “Təhsilin keyfiyyəti ilə bağlı çox önəmli addımlar atılır, islahatlar aparılır”.

Sonda öz fikrimi cənab Prezident İlham Əliyevin sözləri ilə yekunlaşdırıram: “Rəqəmsal idarəetməyə keçid qaçılmazdır”.




# “Virtual məktəb”də tədris aparan qalib müəllimlər

## 15 azərbaycanlı müəllim “Microsoft-un İnnovativ Ekspert Müəllimi” adına layiq görülüb

“Virtual məktəb”də tədris aparan 15 azərbaycanlı müəllim “Microsoft-un İnnovativ Ekspert Müəllimi (MIE)” adına layiq görülüb.

“MIE Expert” Microsoft şirkəti tərəfindən hazırlanmış təhsilin transformasiyası üçün texnologiyalardan istifadə edən dünyanın qabaqcıl müəllimlərini bir araya gətirən birillik proqramdır. “MIE Expert” kimi seçilmiş müəllimlər proqramın iştirakçısına çevrilir və il ərzində çeşidli elektron vəsait və dəstəyə çıxış əldə edirlər. Proqramda iştirak şərtlərinə gəlincə, iştirakçı hal-hazırda işləyən ümumtəhsil məktəbin istənilən fənn müəllimi olmalı, tədris keyfiyyətini artırmaq üçün texnologiyalardan yenilikçi üsullarla istifadə, tədris prosesini şagirdlərdə 21-ci əsr bacarıqlarını inkişaf etdirəcək üslubla təşkil etməlidir.

Azərbaycan üzrə bu il proqramın qalibi seçilən, yaradıcı yanaşmaları ilə şagirdlərini təhsilə sövq edən və təcrübələrini dünya ilə bölüşən 15 müəllimi təqdim edirik:

- Əhədova Mətanət (Bakı Avropa Liseyi)
- Ələkbərova Aidə (Sumqayıt şəhəri 1 nömrəli tam orta məktəb)
- Əliyev Elvin (Bakı Beynəlxalq Təhsil Kompleksi)
- Bədəlova Natəvan (Bakı şəhəri Heydər Əliyev adına lisey)
- Abasquliyeva Gülgəz (“Təhsildə İnnovativ Texnologiyalar” Əlavə Təhsil Mərkəzi)
- Bəhramova Ülviyyə (Bakı şəhəri 230 nömrəli tam orta məktəb)
- Çəndiri Günay (Bakı şəhəri 177 nömrəli tam orta məktəb)
- Dadaşova Aynurə (Siyəzən şəhəri inteqrasiya təlimli internat tipli gimnaziya)
- Çəndirli Xalid (“Təhsildə İnnovativ Texnologiyalar” Əlavə Təhsil Mərkəzi)
- Elyazova Aidə (Samux rayonu İnstitut qəsəbə tam orta məktəbi)
- Qafarova Könül (Sumqayıt şəhəri 26 nömrəli tam orta məktəb)
- Həsrətov Alqış (Sumqayıt şəhəri 25 nömrəli tam orta məktəb)
- Orucova Aynurə (Gəncə şəhəri 22 nömrəli tam orta məktəb)
- Qafarova Ofeliya (Bakı şəhəri 220 nömrəli məktəb-lisey)
- Rüstəmova Vüsalə (Sumqayıt şəhəri 21 nömrəli tam orta məktəb)

*Mənbə:https://onedrive.live.com/?authkey=%21AA7Q1t8EBnqLNsE&cid=91F4E618548FC604&id=91F4E618548FC604%218267&parId=91F4E618548FC604%216015&o=OneUp*

Təhsildə yeni texnologiyalar tətbiq edən bu müəllimlər yalnız sinif mühitində deyil, onlayn mühitdə də zaman və məkandan asılı olmayaraq tədrisə davam edirlər. Bu isə pandemiya dövründə keyfiyyətli təhsilin təmin edilməsi baxımından olduqca əhəmiyyətlidir.

Proqramın qaliblərindən olan Bakı Avropa Liseyinin müəllimi Mətanət Əhədova öz uğuru barədə təəssüratlarını paylaşarkən bildirib: “Pandemiya dövründə təhsildə innovativ metod və üsulların tətbiqi, beynəlxalq təhsil arenasına qoşulmaq və peşəkarlığın artırılmasında Microsoft Education və “Virtual məktəb”in rolu danılmazdır. “Virtual məktəb”ə ilk qoşulan müəllimlərdən olmuşam və “Teams” proqramı ilə interaktiv alətləri tətbiq edərək həm şagirdlər, həm də həmkar müəllimlər üçün müxtəlif onlayn dərslər, təlim və vebinarlar keçmişəm. İnnovativlik, kreativlik, zəhmət və məqsədyönlülük həmişə öz bəhrəsini verir.”

Sumqayıt şəhəri 1 nömrəli tam orta məktəbin müəllimi Aidə Ələkbərova isə qeyd edib ki, qalib seçilməsində iştirak etdiyi “Microsoft” şirkətinin onlayn kursları və təlimləri əhəmiyyəti rol oynayıb: “Burada öyrəndiklərimi “Virtual məktəb”də distant dərslərdə tətbiq edirəm. Şagirdlərimdə tələb olunan bilik və bacarıqları formalaşdırmaq üçün onlayn kurslardan öyrəndiklərimlə yanaşı, “Virtual məktəb”də təklif olunan geniş interaktiv alətlərdən də istifadə edirəm”.

Bakı şəhəri 220 nömrəli məktəb-liseyin müəllimi Ofeliya Qafarova distant dərslərində “Virtual məktəb”də təqdim olunan “Flipgrid”, “Peardeck”, “Wakelet”, “Sway” kimi alətləri geniş tətbiq etdiyini bildirir: “Bu alətləri dərslərimdə tətbiq edərək interaktivliyi təmin edirəm. Onu da qeyd edim ki, bu yaxınlarda şagirdlərimlə birgə “Teams” platforması üzərindən 6 ölkənin iştirakı ilə Beynəlxalq “açıq dərs”ə qoşularaq Azərbaycanı təmsil etmişik. Bu cür dərslərə davamlı olaraq qoşulmağı planlaşdırırıq”.

“Cəmiyyətimizdəki Microsoft İnnovativ Müəllim (MIE) mütəxəssisləri, dünyanın digər ilhamverici müəllimləri ilə əlaqə qurmağa hazır olan və ömür boyu öyrənmə yollarına davam edən müəllimlərdir. Bu eksklüziv qlobal birliyin bir hissəsi olmaq, innovativ müəllimlər arasında olmaq çox sevindirici hissdir” - bu barədə Gəncə şəhəri 22 nömrəli tam orta məktəbin müəllimi Aynurə Orucova bildirib.

Biz də, öz növbəmizdə, təhsildə yeni texnologiyalar tətbiq edərək tədris aparan qalib müəllimlərimizi təbrik edir və tutduqları yenilikçi yolda uğurlar arzulayırıq.

# Yeni tədris ilində pandemiya şəraitinə uyğun təhsil müəssisələrinin fəaliyyətinin təşkili QAYDALARI


















Azərbaycan Respublikası Təhsil Nazirliyi

# Naxçıvan Müəllimlər İnstitutu

Fəlsəfə doktoru hazırlığı üzrə
2020-ci il üçün doktoranturaya və dissertanturaya qəbul

## ELAN EDİR

Naxçıvan Müəllimlər İnstitutunda fəlsəfə doktoru hazırlığı üzrə 2020-ci il üçün doktoranturaya və dissertanturaya qəbul Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25 avqust 2020-ci il tarixli 493/s nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin, elmi müəssisə və təşkilatların 2020-ci il üçün doktorant və dissertant hazırlığı üzrə qəbul planları"na əsasən aşağıdakı qaydada aparılır.

**Fəlsəfə doktoru hazırlığı üzrə doktoranturaya qəbul planı:**

***Büdcə hesabına, əyani təhsilalma forması:***

- *Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası - 1 yer;*
- *Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi - 1 yer;*
- *Pedaqoji psixologiya - 1 yer.*

***Büdcə hesabına, qiyabi təhsilalma forması:***

- *Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası - 1 yer;*
- *Müəllim hazırlığı və fəaliyyəti - 1 yer;*
- *Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi - 1 yer;*
- *Sosial pedaqogika - 1 yer;*
- *Pedaqoji psixologiya - 1 yer.*

***Ödənişli əsaslarla, qiyabi təhsilalma forması:***

- *Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası - 1 yer;*
- *Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi - 1 yer;*
- *Pedaqoji psixologiya - 1 yer.*

**Fəlsəfə doktoru hazırlığı üzrə dissertanturaya qəbul planı:**

***Büdcə hesabına, qiyabi təhsilalma forması:***

- *Müəllim hazırlığı və fəaliyyəti - 1 yer;*
- *Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi - 1 yer;*
- *Pedaqoji psixologiya - 1 yer.*

***Ödənişli əsaslarla, qiyabi təhsilalma forması:***

- *Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası - 1 yer;*
- *Sosial pedaqogika - 1 yer.*

Doktoranturaya qəbul Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 1 iyul tarixli 129 nömrəli Qərarı ilə təsdiq edilmiş "Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları"nın Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 noyabr 2019-cu il tarixli 443 nömrəli Qərarı ilə təsdiqlənmiş yeni redaksiyasının tələbləri əsasında aparılır.

Doktoranturaya qəbul (habelə dissertanturaya təhkimolunma) üçün aşağıdakı sənədlər təqdim edilməlidir:

- *Naxçıvan Müəllimlər İnstitutunun rektorunun adına ərizə;*
- *kadrların şəxsi-qeydiyyat vərəqi;*
- *tərcümeyi-hal;*
- *2 ədəd foto-şəkil (3x4 sm ölçüdə);*
- *iş yerindən xasiyyətnamə;*
- *iş stajı olanlar üçün əmək kitabçasından çıxarış;*
- *çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat;*
- *ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsili haqqında sənədlərin tanınmasına dair şəhadətnamə);*
- *xarici dil biliklərinə dair beynəlxalq sertifikat (əgər varsa);*
- *şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Sənədlərin qəbulu 25 sentyabr 2020-ci il tarixədək iş günlərində saat 9.00-dan 17.00-a kimi aparılır.

Əlavə məlumat almaq üçün Naxçıvan Müəllimlər İnstitutunun Elmi hissəsinə müraciət etmək olar.

**Ünvan:** Naxçıvan şəhəri, Heydər Əliyev prospekti, 2.
Naxçıvan Müəllimlər İnstitutu, Elmi hissə (otaq № 208)

**Telefon:** (+994 36) 544-04-29

**E-mail:** elmihisse@nmi.edu.az

**REKTORLUQ**

Azərbaycan Respublikası Təhsil Nazirliyi

# Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti

Fəlsəfə və elmlər doktoru proqramı üzrə
2020-ci ildə doktorantura və dissertanturaya
aşağıdakı ixtisaslar üzrə qəbul

## ELAN EDİR

**2020-ci il üçün fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul planı**

| Elm sahələri və ixtisaslar | | Cəmi | Doktoranturaya qəbul planı (o cümlədən) | | | | Dissertanturaya qəbul planı | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Büdcə hesabına | | ödənişli əsaslarla | | Cəmi | o cümlədən | |
| | | | | | | | | büdcə hesabına | ödənişli əsaslarla |
| **Sənətşünaslıq** | | | əyani | qiyabi | əyani | qiyabi | | | |
| İncəsənətin nəzəriyyəsi, təhlili və tənqidi | 6203.01 | 1 | | | 1 | | | | |
| Teatr sənəti | 6212.01 | 1 | | | 1 | | 1 | | 1 |
| Musiqi sənəti | 6213.01 | 1 | | | 1 | | 1 | | 1 |
| Kino, tele və digər ekran sənətləri | 6214.01 | 1 | | | 1 | | 1 | | 1 |
| Təsviri sənət | 6215.01 | 1 | | | 1 | | | | |
| Dekorativ tətbiqi sənət | 6218.01 | 1 | | | 1 | | 1 | | 1 |
| **Cəmi** | | **6** | | | **6** | | **4** | | **4** |

**2020-ci il üçün elmlər doktoru proqramı üzrə doktorantura və dissertanturaya qəbul planı**

| Elm sahələri və ixtisaslar | | Doktorantura | | | | | Dissertantura | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | Cəmi | o cümlədən | | | | Cəmi | O cümlədən | |
| | | | büdcə hesabına | | ödənişli əsaslarla | | | büdcə hesabına | ödənişli əsaslarla |
| | | | əyani | qiyabi | əyani | qiyabi | | | |
| **Sənətşünaslıq** | | | | | | | | | |
| İncəsənətin nəzəriyyəsi, təhlili və tənqidi | 6203.01 | 1 | | 1 | | | | | |
| **Cəmi** | | 1 | | 1 | | | | | |

Fəlsəfə doktoru və elmlər doktoru proqramı üzrə doktoranturaya qəbul qaydaları və təqdim ediləcək sənədlər barədə məlumat almaq üçün bu ünvana müraciət etmək olar:

**Ünvan:** Bakı ş.,İnşaatçılar pr. 39.
**Telefon:** (012) 599-00-54 (daxili nömrə 130, 164)
Sənədlər 25 sentyabr tarixinədək qəbul edilir.

**REKTORLUQ**

# MDU yeni ERASMUS+ layihəsinin icrasında iştirak edəcək

Co-funded by the Erasmus+ Programme of the European Union

Mingəçevir Dövlət Universiteti (MDU) Avropa İttifaqının ERASMUS+ proqramı çərçivəsində qalib elan edilmiş "Sahil ekosistemlərinin iqlim dəyişikliyinə uyğunlaşması üçün geoməkan mühəndisliyi üzrə yeni kurslar" ("New Courses in Geospatial Engineering for Climate Change Adaptation of Coastal Ecosystems" - GEOCLIC) layihəsinin tərəfdaşlarından biridir. Ali təhsildə potensialın gücləndirilməsinə xidmət edən yeni layihənin 2020-2023-cü illərdə icra edilməsi nəzərdə tutulur.

MDU-dan verilən məlumata görə, layihənin koordinatoru qismində Əl-Fərabi adına Qazaxıstan Milli Universiteti çıxış edəcək. Layihənin benefisiarları arasında Azərbaycan, Qazaxıstan və Türkmənistanı təmsil edən ali təhsil müəssisələri və müvafiq təşkilatlar yer alıb. Layihənin icrası çərçivəsində Almaniya, Niderland, Litva və Rumıniya universitetlərinin müsbət təcrübəsi öyrəniləcək.

Layihənin əsas məqsədi GEONETCast və GIS—ILWIS proqram təminatı, uzaqdan zondlama və modelləşdirmə texnologiyalarından istifadə etməklə mövcud tədris proqramlarını yeniləməkdən, bununla da sahil ekosistemlərinin ekoloji təhlükəsizliyinin təmin edilməsinə töhfə verməkdən ibarətdir. Layihə çərçivəsində tərəfdaş universitetlərdə müvafiq ixtisaslar üzrə kurikulumların təkmilləşdirilməsi, eləcə də GEOLAB təchizatlı innovasiya laboratoriyalarının və virtual otaqların yaradılması nəzərdə tutulub.

Layihənin yerli tərəfdaşları arasında MDU ilə yanaşı, Bakı Dövlət Universiteti, Milli Aviasiya Akademiyası, Azərbaycan Memarlıq və İnşaat Universiteti və Beynəlxalq Ekoloji Enerji Akademiyası da yer alıb.

Hazırda MDU-nun ERASMUS+ proqramı çərçivəsində həm potensialın gücləndirilməsi, həm də tələbə və müəllim mübadiləsi layihələrində fəal iştirakına xüsusi diqqət yetirilir.

# İngilis dilini öyrənənlər üçün dərs nümunələri

BRITISH COUNCIL

LearnEnglish Print

## International Mother Language Day

**There are about 6,500 languages in the world, but did you know that a language disappears and dies every two weeks? International Mother Language Day, on 21 February, is a day to celebrate and protect all the languages of the world.**



A language is much more than just a way of communicating. Language, and particularly our mother tongue, is an important part of our culture. Some people even think that our language can change how we see the world.

In 1999, a special day to promote mother languages was created. The day was also intended to raise awareness of just how many languages we have on this planet (around 6,500) and to protect them. The idea came from the country of Bangladesh, and 21 February is also the day when Bangladeshis mark the day that the Bangla language was officially accepted. Bangladeshis celebrate both days by holding literary competitions and singing songs.

Other countries have also set up special projects to mark this day. For example, the Indian government released digital learning materials for schools and colleges in the 22 most widely spoken Indian languages. It is estimated that there are around 750 languages ordialects in India, and, sadly, that around 250 more languages have been lost in the last 50 years.

The Director General of UNESCO, Audrey Azouley, believes that children learn best in their mother tongue, and that it is important that children should have this opportunity. Around the world, 40 per cent of the population does not have access to education in a language they can understand or speak.

At least 43 per cent of all languages are endangered, and fewer than 100 of the world's languages are used in the digital world. But everyone has the right to use their own mother language, and to keep the memories, traditions and ways of thinking that their language represents.

### ACTIVITIES

#### 1. Vocabulary

**Match the definitions (a–g) with the vocabulary in bold (1–7).**

| vocabulary | definition |
|---|---|
| 1. **to promote** something | a. to start something new |
| 2. **to raise awareness** of something | b. to encourage or support something |
| 3. **to hold** a competition or event | c. to celebrate something |
| 4. **to set up** a project | d. to increase people's understanding of something |
| 5. **to mark** a special day | e. to be able to do something |
| 6. **to release** a book or piece of music | f. to make something happen |
| 7. **to have access** to education | g. to publish something |

#### 2. True or false

**Are the sentences true or false?**

| | | |
|---|---|---|
| 1. The Bangladeshis do not celebrate Mother Language Day. | *True* | *False* |
| 2. There are more than 22 languages spoken in India. | *True* | *False* |
| 3. Around a quarter of the languages in India have been lost in the last 50 years. | *True* | *False* |
| 4. Audrey Azouley believes that children learn best in English. | *True* | *False* |
| 5. 40 per cent of the world's population attend classes in a language they can't understand or speak. | *True* | *False* |
| 6. Only 43 per cent of the world's languages are used online. | *True* | *False* |

### DISCUSSION

How many people speak your mother tongue? Which other languages would you like to learn?

**ANSWERS**

ACTIVITY 1

1. b; 2. d; 3. f; 4. a; 5. c; 6. g; 7. e

ACTIVITY 2

1. False; 2. True; 3. True; 4. False; 5. True; 6. False

To find more English language activities visit www.britishcouncil.org/learnenglish

© British Council 2019

Azərbaycan Respublikası Təhsil Nazirliyi

# Sumqayıt Dövlət Universiteti

## 2020-ci il üçün fəlsəfə doktoru və elmlər doktoru hazırlığı üzrə doktoranturaya qəbul

## ELAN EDİR

### Fəlsəfə doktoru proqramı üzrə

| İxtisasın şifri | İxtisasın adı | Fəlsəfə doktoru proqramı üzrə | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | doktoranturaya qəbul planı | | | | | dissertanturaya qəbul planı | | |
| | | cəmi | o cümlədən | | | | cəmi | o cümlədən | |
| | | | büdcə hesabına | | ödənişli əsaslarla | | | büdcə hesabına | ödənişli əsaslarla |
| | | | əyani | qiyabi | əyani | qiyabi | | | |
| 1202.01 | Analiz və funksional analiz | 1 | | 1 | | | | | |
| 1203.01 | Kompüter elmləri | 1 | | 1 | | | | | |
| 1211.01 | Diferensial tənliklər | | | | | | 1 | 1 | |
| 2211.01 | Bərk cisimlər fizikası | 1 | | 1 | | | | | |
| 2314.01 | Neft kimyası | | | | | | 1 | 1 | |
| 3303.01 | Kimya texnologiyası və mühəndisliyi | 1 | | 1 | | | | | |
| 3338.01 | Sistemli analiz, idarəetmə və informasiyanın işlənməsi | | | | | | 1 | 1 | |
| 3340.01 | Elektrotexniki sistemlər və komplekslər | 1 | | 1 | | | | | |
| 5308.01 | Ümumi iqtisadiyyat | | | | | | 1 | 1 | |
| 5311.01 | Müəssisələrin təşkili və idarə olunması | 1 | | 1 | | | | | |
| 5502.01 | Ümumi tarix | | | | | | 1 | 1 | |
| 5503.02 | Vətən tarixi | 1 | | 1 | | | | | |
| 5706.01 | Azərbaycan dili | | | | | | 1 | 1 | |
| 5714.01 | Müqayisəli-tarixi və müqayisəli-tipoloji dilçilik | 1 | | 1 | | | | | |
| 5716.01 | Azərbaycan ədəbiyyatı | | | | | | 1 | 1 | |
| 5718.01 | Dünya ədəbiyyatı | 1 | | 1 | | | | | |
| 6312.01 | Sosiologiyanın nəzəriyyəsi, metodologiyası və tarixi | | | | | | 1 | 1 | |
| 7207.01 | Sosial fəlsəfə | 1 | | 1 | | | | | |
| **Cəmi** | | **10** | | **10** | | | **8** | **8** | |

### Elmlər doktoru proqramı üzrə

| İxtisasın şifri | İxtisasın adı | Elmlər doktoru proqramı üzrə | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | doktoranturaya qəbul planı | | | | | dissertanturaya qəbul planı | | |
| | | cəmi | o cümlədən | | | | cəmi | o cümlədən | |
| | | | büdcə hesabına | | ödənişli əsaslarla | | | büdcə hesabına | ödənişli əsaslarla |
| | | | əyani | qiyabi | əyani | qiyabi | | | |
| 2225.01 | Radiasiya materialşünaslığı | 1 | | 1 | | | | | |
| 5503.02 | Vətən tarixi | | | | | | 1 | 1 | |
| **Cəmi** | | **1** | | **1** | | | **1** | **1** | |

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25 avqust 2020-ci il tarixli 493s saylı sərəncamına uyğun olaraq fəlsəfə doktoru proqramı üzrə doktoranturaya (dissertanturaya) ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən (magistr dissertasiyasını müdafiə edən), yaxud təhsili ona bərabər tutulan və elmlər doktoru proqramı üzrə doktoranturaya (dissertanturaya) fəlsəfə doktoru və ya ona bərabər tutulan elmi dərəcəsi olan Azərbaycan Respublikasının vətəndaşları qəbul olunurlar.

**Qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:**

1. *Rektorun adına ərizə;*
2. *Kadrların şəxsi - qeydiyyat vərəqi;*
3. *Tərcümeyi - hal;*
4. *2 ədəd fotoşəkil (3x4 sm ölçüdə);*
5. *İş yerindən xasiyyətnamə;*
6. *Əmək kitabçasından çıxarış;*
7. *Çap olunmuş elmi işlərin siyahısı (və ya fəlsəfə doktoru proqramı üzrə seçilmiş ixtisasdan referat);*
8. *“Fəlsəfə doktoru” və ya “Elmlər namizədi” elmi (alimlik) dərəcəsi diplomunun müvafiq qaydada təsdiq edilmiş surəti (Elmlər doktoru proqramı üçün);*
9. *Ali təhsil müəssisəsini bitirmək haqqında diplomun və diploma əlavənin (bakalavr və magistratura təhsil pillələri üzrə) müvafiq qaydada təsdiq edilmiş surətləri (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil barədə sənədlərin tanınması haqqında şəhadətnamə);*
10. *Şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Sənədlər 2020-ci il sentyabrın 3-dən 25-dək qəbul edilir. Qəbul imtahanları 2020-ci il oktyabrın 5-dən noyabrın 6-dək keçiriləcək.

Qəbul qaydaları haqqında ətraflı məlumatı SDU-nun Doktorantura və magistratura şöbəsindən və rəsmi internet portalından *(www.sdu.edu.az)* almaq olar.

Sənədlər şənbə, bazar və istirahət günlərindən başqa hər gün səhər saat 9.00-dan 17.00-dək Sumqayıt Dövlət Universitetinin Doktorantura və magistratura şöbəsində qəbul edilir.

**Ünvan:** Sumqayıt şəhəri, 43-cü məhəllə.
**Telefon:** (018) 642-12-63, 050 339-68-36

**REKTORLUQ**

## Məktəbdənkənar dərnəklərə yekun vurulub

“Virtual məktəb” platforması üzərindən təşkil olunan məktəbdənkənar dərnəklərin fəaliyyəti başa çatıb.

Dərnəklər şagirdlərin tətil vaxtını faydalı və maraqlı keçirmələrinin təmin edilməsi, onların yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsi, həmçinin asudə vaxtlarının səmərəli təşkili məqsədi daşıyıb.

Cari ilin iyul ayının əvvəllərindən başlayan və iki ay müddətinə 6 fərqli istiqamət - “Bədii qiraət”, “Şahmat”, “Xalq çalğı alətləri”, “Rəqs”, “Toxunma əl işləri”, “Bacarıqlı əllər” üzrə davam edən dərnəklərdə 20 mindən çox məktəbli iştirak edib.

COVID-19 pandemiyası ilə əlaqədar onlayn platformada şagirdlərin maraqlarına uyğun olaraq təşkil edilən dərnəklərdə Azərbaycan və rus bölmələri üzrə şagirdlərə bədii əsərlərin düzgün oxunuşu, toxuma və əl işlərinin hazırlanması, şahmat, milli və xarici rəqslər öyrədilib, xalq çalğı alətləri haqqında geniş məlumatlar verilib.

Bundan əlavə, dərnəklərdə real vaxt rejimində iştirak edə bilməyən şagirdlər üçün məşğələlərin videoyazısı “Microsoft Stream”in “Virtual məktəb” kanalında yerləşdirilərək onları təkrar izləmək imkanı yaradılıb.


“AZƏRBAYCAN MÜƏLLİMİ”

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet “Azərbaycan müəllimi”nin kompüter mərkəzində yığılır və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı 5 saylı “Mətbuat şöbəsi”
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

“Azərbaycan müəllimi” qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 6120, **Sifariş** 2091

**Məsul növbətçi:** O.Mustafayev


## Etibarsız sayılır

**Astara Pedaqoji Kolleci** tərəfindən 2006-cı ildə Məmmədova Bahar Şakir qızına verilmiş BB-II-039547 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2017-ci ildə Hüseynzadə Kənan Yusif oğluna verilmiş A-123330 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Dövlət Universiteti** tərəfindən 2014-cü ildə Əliyev Mətləb Yusif oğluna verilmiş A-043475 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 21 nömrəli tam orta məktəbi 1987-ci ildə bitirmiş Məmmədova Məlahət Kamal qızına verilmiş AK-354789 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**22 nömrəli Bakı texniki peşə məktəbi** tərəfindən 1980-ci ildə Əhmədov Şahin Zeynalabid oğluna verilmiş 5526 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi Pedaqoji Kolleci** tərəfindən 2005-ci ildə Musayeva (İbrahimova) Nuranə Fədail qızına verilmiş BB-II-026148 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Füzuli rayon** 4 nömrəli orta məktəbi 2004-cü ildə bitirmiş Vəliyev Elməddin Sevindik oğluna verilmiş B-086819 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bərdə şəhər** 6 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş Bayramov Əsgərxan Maxsud oğluna verilmiş A-471983 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gədəbəy rayon** Sarıhəsənli kənd tam orta məktəbi 1993-cü ildə bitirmiş Əhmədov Səyavuş Sərdar oğluna verilmiş AN-071053 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 14 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Cəfərova Zarina Sarıbala qızına verilmiş B-270396 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Dövlət Universiteti** tərəfindən 2002-ci ildə Abdullayev Baxşəli Muxtar oğluna verilmiş A-105207 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 79 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Qədirov Nadir Elşad oğluna verilmiş B-497457 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 39 nömrəli tam orta məktəbi 2017-ci ildə bitirmiş Nəcəfov Nurlan Rasim oğluna verilmiş E-023732 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 158 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Məmmədov Xalıq Natiq oğluna verilmiş A-307888 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Qəbələ rayon** Qaradeyin kənd tam orta məktəbi 2013-cü ildə bitirmiş Mehdiyev Tehran Abid oğluna verilmiş A-244489 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Mühəndislik Universiteti** tərəfindən 2017-ci ildə Hüseynli Dostu Əlihəsən qızına verilmiş A-119601 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**16 nömrəli Bakı Peşə Məktəbi** tərəfindən 1986-cı ildə Rəhimov Rəfail Həmid oğluna verilmiş A-086912 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 203 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Hüseynova Lalə Mehman qızına verilmiş B-302869 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 193 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Bayramov İsmayıl Fəxri oğluna verilmiş A-191255 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**“BSB” tam orta İnnovasiyalar Məktəbini** 2019-cu ildə bitirmiş Süleymanova Elmira Vüqar qızına verilmiş E-231632 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Şağlaser kənd tam orta məktəbi 1986-cı ildə bitirmiş Nəhmətov Bəhram Baba oğluna verilmiş A-278422 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Boladi kənd 1 nömrəli tam orta məktəbi 1993-cü ildə bitirmiş Ramazanov Nəsimi Ramazan oğluna verilmiş A-020073 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Viravul kənd 2 nömrəli tam orta məktəbi 1997-ci ildə bitirmiş Abdullayeva Ülviyyə Tarix qızına verilmiş A-023280 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Kimya-biologiya Təmayüllü Respublika Liseyi** 1997-ci ildə bitirmiş Məmmədova (İsmayılova) Fərimə Kamil qızına verilmiş A-183134 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Milli Aviasiya Akademiyasını** 2004-cü ildə bitirmiş Hacıyeva Səbinə Namiq qızına 2006-cı ildə verilmiş AB-I-086468 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2016-cı ildə Allahverdiyeva Sahilə Turabxan qızına verilmiş A-090490 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Ağsu rayon** Arakənd kənd tam orta məktəbin IX sinfini 1998-ci ildə bitirmiş Vahidova Samirə Nadir qızına verilmiş BN-190670 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər Məişət Xidməti Kolleci** tərəfindən 2000-ci ildə Sadıqova Aygün Fərhad qızına verilmiş 045882 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz şəhər** 1 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Xudaverdiyev Nicat Kamal oğluna verilmiş A-134839 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan şəhər** 7 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Novruzova (Məmmədova) Aytən Mirzəli qızına verilmiş A-000242 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 35 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Şirinzadə Şamil Məmməd oğluna verilmiş A-343384 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 320 nömrəli tam orta məktəbin IX sinfini 2014-cü ildə bitirmiş Əliyev Yunis Arzu oğluna verilmiş A-442253 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 155 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Həsənov Rüfət Oruc oğluna verilmiş AN-191568 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir rayon** Köhnəbazar kənd tam orta məktəbi 2015-ci ildə bitirmiş Osmanov Orxan Elşad oğluna verilmiş A-461940 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir rayon** Böyük Kəngərli kənd tam orta məktəbin IX sinfini 1997-ci ildə bitirmiş Tağıyeva Lətifə Əlman qızına verilmiş 101952 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 10 nömrəli tam orta məktəbi 1999-cu ildə bitirmiş Lətifov Fərid Fərman oğluna verilmiş A-369616 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 62 nömrəli tam orta məktəbi 1994-cü ildə bitirmiş Quliyeva Vəfa Əfrayıl qızına verilmiş A-161747 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin rəhbərliyi və aparat işçiləri Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Abşeron rayon komitəsinin sədri Vahid Əliyevə qardaşı

**ZAKİR ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin rəhbərliyi və aparat işçiləri Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Binəqədi rayon komitəsinin sədri, Əməkdar müəllim Almaz Hacıyevaya həyat yoldaşı

**FAZİL MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Olimpiada dahiləri

# Beynəlxalq olimpiada hərəkatında növbəti İLK

## Avropa Coğrafiya Olimpiadasında ilk dəfə iştirak edən məktəblilərimiz iki medal qazandı



Ruhiyyə DAŞSALAHLI

**Avqustun 29-30 tarixlərində virtual formatda keçirilən Avropa Coğrafiya Olimpiadasından gələn xoş xəbər Azərbaycan təhsili üçün növbəti ilklərdən biri oldu. Belə ki, şagirdlərimiz 2015-ci ildən etibarən keçirilən bu yarışa ilk dəfə qatılsalar da, böyük uğura imza atdılar. Olimpiadaya həm aşağı, həm də yuxarı yaş qrupu üzrə qatılan Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyinin XI sinif şagirdi Mustafa Bayramlı və Bakı şəhəri 309 nömrəli tam orta məktəbin IX sinif şagirdi Hüseyn Hüseynli bürünc medala layiq görüldülər. Xatırladaq ki, sözügedən elm yarışına 14 ölkədən 73 şagird qatılıb.**

### “Xoşbəxtəm ki, mənə olan etimadı doğrultdum”

Layihə iştirakçıları əvvəlki tədris illərinin Respublika fənn olimpiadaları qalibləri arasından seçilib. Həmin qaliblərdən biri, sözügedən olimpiadanın bürünc medalçısı, Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyinin XI sinif şagird Mustafa Bayramlının bu uğurunun başlıca səbəbi coğrafiyaya olan sevgisidir: “Coğrafiyaya marağımı müəllimlərim yaratdı. Müəllimlərim ailəmlə birgə çalışdılar və məhz onların dəstəyi nəticəsində uğur qazandım. Coğrafiya üzrə respublika fənn olimpiadalarında 2 dəfə gümüş, 1dəfə qızıl medal əldə etdim. Bu göstəricilərim sayəsində coğrafiya müəllimi Yaşar Seyidəliyevin də diqqətini cəlb etdim. Aylarca onunla hazırlaşdıq. Bu son uğurum, ən əsası, çəkdiyimiz əziyyətlərin hədər getməməsi məni çox qürurlandırdı. Coğrafiyanı sevdiyimi hamı bilir. Ona görə nəinki müəllimlərim, ətrafımdakı hər kəs məndən bu uğuru gözləyirdi. Bu gözləntilər elm yarışında üzərimə əlavə məsuliyyət də qoyurdu. Həm də ona görə xoşbəxtəm ki, mənə olan gözləntiləri, etimadı doğrultdum”.

Mustafa coğrafiya üzrə hazırlıqlarından da həvəslə danışıb: “Hazırlığımız keçən ilin payızında başladı. Biz beynəlxalq coğrafiya olimpiadasına hazırlaşırdıq. Təbii ki, o vaxt hələ pandemiya yox idi. Real hazırlıqlarımızı pandemiyadan sonra virtual davam etdirdik. COVID-19 hazırlıqlarımıza mane olmasa da, olimpiadanın keçirilməsinə mane oldu. Beynəlxalq coğrafiya olimpiadası təxirə düşdü. Biz də Avropa Coğrafiya Olimpiadasına qatıldıq”.

M.Bayramlının məktəblilərə tövsiyəsi də var: “Təhsil Nazirliyi müxtəlif fənlər üzrə beynəlxalq olimpiadalara hazırlığı təşkil edir. Bu hazırlıq üçün məktəblilərdən, sadəcə elmə həvəs tələb olunur. Bütün xərcləri dövlətimiz ödəyir. Ona görə də həvəsi və yüksək göstəriciləri olan şagirdlər akademik maraqlarını erkən yaşlarından müəyyənləşdirsinlər və bu yolda bütün resurslardan istifadə etsinlər”.

### “İlk medalçılardan olmağın qürurunu yaşayıram”

Avropa Coğrafiya Olimpiadasının bürünc medalçısı Hüseyn Hüseynli isə bu yarışda Azərbaycanı aşağı yaş qrupunda təmsil edib. O, respublika fənn olimpiadasının ikincisidir: “Bu olimpiadada iştirak yer tutmağımdan asılı olmayaraq, məndə çox yaxşı təəssüratlar yaratdı. Yeni insanlar tanıdım. Komandamızın üzvləri və müəllimimiz Yaşar Seyidəliyevlə tanış oldum. Belə şanslar insanın qarşısına az-az çıxır və mən də bu şansı dəyərləndirə bildiyimə görə sevinirəm. Ən çox da Avropada Azərbaycanın ilk medalçılarından olmağın sevincini və qürurunu yaşayıram”.

H.Hüseynlinin sözlərinə görə, belə bir yarışda medal qazanmaq onun üçün asan olmayıb: “Bu yarışa onlayn şəkildə bir ay hazırlaşdıq. Beynəlxalq olimpiadaya hazırlıq təcrübəsi olan Yaşar Seyidəliyev komandamızla işlədi. Olimpiadanın çətinliyi burada mövzuların bizim cografiya sistemindən fərqli olması ilə bağlıdır. Az müddətdə tamam fərqli bir sistemə uyğunlaşmağa çalışdıq. Termin fərqliliyi, mövzu fərqi istər-istəməz öz təsirini göstərir”.

Bu çətinliyə baxmayaraq, Bakı məktəblisi adını qaliblər sırasına yazdıra bilib. Uğurunun arxasında isə özünün marağının və müəlliminin doğru yönləndirməsi olduğunu deyir: “Coğrafiya mənim üçün maraqlıdır. Dünyaya aid hər şeylə maraqlanıram. Maraqlandığım üçün də suallarıma cavab axtarıram. Cavabı harda tapacağıma dair müəllimimdən tövsiyələr alıram. Məktəbdə müəllimim Vüsalə Qarayeva ilə respublika fənn olimpiadasına hazırlaşdım və ikinci oldum. Coğrafiya üzrə beynəlxalq olimpiadalara hazırlıq mərkəzində hazırlaşmağı çox istəyirəm. Məni də cəlb etsəydilər, çox yaxşı olardı”.



Mustafa Bayramlı



Yaşar Seyidəliyev



Hüseyn Hüseynli

### Qalib layihənin böyük uğuru

Avropa Coğrafiya Olimpiadasına hazırlıq prosesi Təhsildə inkişaf və innovasiyalar üzrə qrant müsabiqəsi çərçivəsində qalib olmuş “Beynəlxalq Coğrafiya Olimpiadalarına (The International Geography Olympiad (iGeo)) hazırlıq” layihəsi əsasında, Beynəlxalq olimpiadalara hazırlıq mərkəzində həyata keçirilib. Layihənin müəllifi, coğrafiyaçı, şagirdlərin sevimli müəllimi Yaşar Seyidəliyev coğrafiya üzrə təhsil tariximizdə ilk beynəlxalq uğurun qazanılmasından və bu uğura aparan yolda hazırlıq prosesinin təşkilinin önəmindən danışıb: “Təhsildə inkişaf və innovasiyalar üzrə III və IV qrant müsabiqələrində layihəmiz qalib elan olundu. 2019-cu ilin oktyabr ayından etibarən biz hazırlıq dərslərinə başladıq. Hazırlıqlar Nəsimi rayonu 8 nömrəli məktəbdə və Fortis Academy-də təşkil edildi. Hazırlıq dərsləri tamamilə pulsuz idi və xərclər qrant vəsaiti ilə qarşılanırdı. Dərslər şənbə günü keçirilirdi. Bu müddətdə şagirdlər üç dəfə imtahan verdilər. Qeyd edim ki, Beynəlxalq Coğrafiya Olimpiadasına hazırlıq bir prosesdir və bu işdə bir çox insanın əməyi var. Elnur Osmanov, Şövqiyyə Məlikova, Aliyə Süleymanova, Vüqar Mahmudov, Mahir Sərkərli, Fuad Quliyev, 8 nömrəli məktəbin rəhbəri Aytən Baxşıyeva və “Fortis Academy”-nin rəhbəri Ramil Hacıyevin adını xüsusi qeyd etməliyəm”.

Beynəlxalq Coğrafiya Olimpiadası (iGeo) 1996-cı ildən təşkil olunur. Azərbaycandan ilk dəfə 2015-ci ildə müşahidəçi kimi iştirak edən Y.Seyidəliyevin sözlərinə görə, bu il, 2020-ci ildə növbəti, 17-ci Beynəlxalq Coğrafiya Olimpiadasının Türkiyədə keçirilməsi nəzərdə tutulurdu: “Bu il uğurlu çıxış edəcəyimizə ümidli idik. Şagirdlər çox yaxşı hazırlaşmışdı və kifayət qədər güclü idilər. Lakin mövcud vəziyyəti dəyərləndirən təşkilatçı heyət olimpiadanı təxirə salmaq qərarı verdi. Biz də Avropa Coğrafiya Olimpiadasına müraciət etdik”.

Beynəlxalq olimpiadalarda yaş kriteriyası olduğunu, sadəcə 16-19 yaşlı və ən güclü şagirdlərin iştirak etdiyini vurğulayan Y.Seyidəliyev Avropa coğrafiya olimpiadasının şərtlərinin bu cəhətdən daha geniş imkanlar verdiyini deyib. Belə ki, Avropa coğrafiya olimpiadasında iki yaş - kiçik yaş (12-15 yaş) və yuxarı yaş (16-19 yaş) kateqoriyaları var: “Hər iki kateqoriya ilə iştirak etdik. Avropa Coğrafiya Olimpiadasında bu, ilk iştirakımız idi. Halbuki bu yarışa məktəblilərimiz cəmi bir ay onlayn hazırlaşa bildi. Amma biz Azərbaycan komandasına güvənirdik. Komandamızın şagirdlərinin hamısı RFO qalibləridir”.

Yaşar müəllim onu da qeyd edib ki, əslində, məktəblilərimizin Azərbaycandan kənarda coğrafiya üzrə yarışı qazanması çox çətindir: “Milli kurikulumla beynəlxalq kurikulum çox kəskin şəkildə fərqlənir. Sadəcə sualların başqa dildə olması deyil, quruluşu da fərqlidir. Avropada dərslər beynəlxalq kurikulum əsasında keçirilir və eyni proqram əsasında qurulan olimpiadalarda iştirak və uğur qazanmaq o məktəblilər üçün çətin deyil. Bizim məktəblilər isə milli kurikulum əsasında dərs keçir və Hüseyn Hüseynli kimi şagirdlərin uzun müddət xüsusi hazırlıq keçmədən belə bir yarışda uğur qazanması “evrikadır”. Qısa müddətdə, cəmi bir ay hazırlıqlara qatılmaqla belə bir nəticə əldə etməsi şagirdimizin böyük potensialının göstəricisidir”.

Yaşar Seyidəliyev onu da bildirib ki, bu il də Təhsildə inkişaf və innovasiyalar üzrə qrant müsabiqəsində layihəsi qalib elan olunub və növbəti tədris ilində də hazırlıqlar təşkil ediləcək. “Tezliklə feysbuk üzərindən *(https://www.facebook.com/groups/1660060690947078)* qeydiyyat barədə elan verəcəyəm. 15-19 yaşlı şagirdlər qeydiyyatdan keçərək onlayn hazırlıqlara qatıla biləcəklər. Hazırlıq prosesinə qatılacaq şagirdlərin sayında hər hansı məhdudiyyət qoyulmayıb. Əsas tələb ondan ibarətdir ki, coğrafiya fənni üzrə nailiyyətləri olsun. Beynəlxalq yarışlarda şagirdin ingilis dili biliyinin olmasının önəmini nəzərə alaraq, bu dili bilənlərə üstünlük veriləcək. Hazırlıqların onlayn olması rayonlarda təhsil alan və sadalanan şərtləri ödəyən şagirdlərin də qeydiyyatdan keçməyinə imkan verəcək”.

Y.Seyidəliyev onu da əlavə edib ki, hazırlıq prosesində 3 sınaq imtahanı keçirilir. Həmin imtahanlarda sualların yarısı milli kurikuluma, yarısı isə beynəlxalq kurikuluma uyğun qoyulur. Sınaqda uğursuz nəticə göstərənlər elənmir. Ancaq uğurlu nəticələri olanlarla bağlı böyük planlar var: “Hazırlıq prosesində daim monitorinq aparılır və şagirdlərin dinamik inkişafı izlənilir. Bildiyiniz kimi, beynəlxalq elm yarışlarında iştirak edəcək komandalar ən çox 4 nəfərdən təşkil olunur. Keçirilən imtahanlarla qiymətləndirilən şagirdlər arasında ortalaması aşağı olanlar elənmir. Hazırlıqları davam edən şagirdlər arasından komanda üzvləri seçilir və şərtlərin içərisində RFO qalibi olmaq var. Bununla da, qeyd edilən meyarları ödəyənlər beynəlxalq coğrafiya müsabiqələrinə cəlb edilirlər”.

### Bu, milli olimpiadalarımızın uğurudur

Təhsil İnstitutunun İstedadlı uşaqlarla iş şöbəsinin müdiri Fuad Qarayev də coğrafiya üzrə Avropa səviyyəsində keçirilən bir yarışda məktəblilərin uğurunu ölkə təhsili üçün böyük nailiyyət hesab edir: “Ölkəmiz müstəqillik qazanandan bəri ölkə məktəbliləri 5 fənn üzrə beynəlxalq yarışlara, olimpiada və müsabiqələrə qatılıb, müxtəlif nailiyyətlər qazanıblar. Bu dəfə ölkə məktəbliləri tamamilə fərqli bir istiqamət üzrə, özü də pandemiya dövründə böyük nailiyyət əldə etdilər. İlk dəfə iştirak etməyimizə baxmayaraq, belə bir uğur qazanmağımız kifayət qədər yaxşı nəticədir. Coğrafiya üzrə beynəlxalq olimpiada təcrübəmizin olmamasına, istifadə olunan suallar və məzmunla bağlı məlumatsızlığımıza baxmayaraq, uşaqlarımız olimpiadada çox yaxşı iştirak etdilər”.

Şöbə müdiri bu uğurun səbəbini hazırlığın təşkili və respublika fənn olimpiadalarında izlənilən yolun doğruluğu ilə izah edib: “Bilirsiniz ki, hər il Təhsil Nazirliyi tərəfindən Təhsildə inkişaf və innovasiyalar üzrə müsabiqə elan olunur. Müsabiqədə “Beynəlxalq coğrafiya olimpiadasına hazırlıq” layihəsini qrant layihələrini qiymətləndirən mütəxəssislər bəyənərək müsbət rəy bildirdilər. Məhz həmin layihə əsasında əvvəlki illərdə respublika fənn olimpiadalarının qalibi olan şagirdlər hazırlığa cəlb edildi. Beynəlxalq olimpiadalara hazırlıq mərkəzi ilə birgə Azərbaycanı coğrafiya fənni üzrə Avropada təmsil edəcək komanda üzvlərinin seçimini həyata keçirdik. Onların hazırlığını təmin edən ayrı-ayrı şəxslərin, müəllimlərin, mütəxəssislərin böyük əməyini qeyd etməliyəm. Bu gün əminliklə deyə bilirəm ki, respublika fənn olimpiadalarını beynəlxalq olimpiadalar səviyyəsində keçiririk. Buna nail olduğumuzun ən böyük göstəricisi də ilk dəfə iştirak etdiyimiz Avropa Coğrafiya Olimpiadasınıda qazandığımız nailiyyətdir. Bu, milli olimpiadalarımızın fərqli nöqteyi nəzərdən uğurudur. Yaxşı təcrübə olan bu yarış göstərir ki, Azərbaycan məktəbliləri gələcəkdə dünya və Avropa üzrə keçirilən olimpiadalarda davamlı olaraq iştirak edəcək və coğrafiyaya olan marağını, istedad və qabiliyyətini nümayiş etdirəcəklər”.